Nəsib Abid

Sərin Gül Sadə və onun Söz dünyası

“Elm və təhsil”
Bakı- 2025

Rəyçi:
İladi ÖMƏROĞLU
(S.Sadənin ustadı)

Redaktor:
Vaqif OSMANLI

**Nəsib Abid. Sərin Gül Sadə və onun Söz dünyası.
Elm və təhsil", 2025, 104 səh.**

4702000000
N-98-2025 qrifli nəşr

© "Elm və təhsil", 2025

Mündəricat

Ön söz 4
1-ci fəsil
Söz sənətinə gəlişi, taleyin həyat naxışı...17
2-ci fəsil
Könül dünyasının kəşfi 27
3-cü fəsil
Həyata yeni baxış və duyğuların
həyat sintezi 34
4-cü fəsil
Həyata ruhi və fəlsəfi münasibət.....41
5-ci fəsil
Həyati düşüncənin "maqnetizmi"
və sözün həyat işığı.....47
6-cı fəsil
Zamanın həyat tablosu, fikir
duyğusallığının ictimai xarakteri 54
7-ci fəsil
Xalq şerinə bağlılıq, bayatı sevdası 62
8-ci fəsil
Xalq şerinə münasibətdə ənənəvilik
və sənətkarlıq xüsusiyyətləri.....76
Nəticə 81
Nəticəyə söz ardı 93

ÖN SÖZ

Sözün həyat üzü insanın arzu və istəklərinin loqaritmini yaradır. Könül sevgisinin ruhi-psixoloji əlifbası həyati qayğıların iç üzünü açıb göstərir. Düşüncənin həyati obrazı insanın məişət və ruhunun həyat dinamikasını dəyişdirir.

"Sadə" təxəllüsü ilə poeziyaya gələn Sərin Gül özünün həyat və könül sevgisinin aydınlığı ilə, poetik duyğularını sözün ecazkar qüvvəsi ilə sənət əsərlərinə dönüşdürmüşdür.

Sərin Gülə "Sadə" təxəllüsünü özündən yaşca on yaş böyük olan İladi Ömərоğlu vermişdir. Orucovlar ailəsində səkkiz övladdan dördü - iki qardaş, iki bacı - İladi Ömərоğlu ilə, Nəbi Orucov, Səadət Buta ilə Sərin Gül Sadə söz sənətində peşəkarlıqla yazıb yaradırlar.

İki qardaş, iki bacının hər birinin öz söz-sənət dünyaları var. Sərin Gül Sadənin söz dünyası isə tam səmimiyyəti və həyati-ruhi, etik-estetik yönü ilə, tam-tamına fərqli həyat ruhu ilə seçilir. Şairənin çap olunmuş şeir kitablarında toplanmış

əsərləri zamanın gur işığında həyati qayğıların düşüncə alqoritmini tam ruhi duyğsallıqla insanların düşüncəsinə təqdim edir.

Sözdü bu dünyada əbədi, ölməz,
Sözün qüdrətini de, kimlər bilməz.
Yaratdıq elə bir "Könül körpüsü",
Zamanın selləri tarixdən silməz.
("Könül körpüsü")

Sözün həyat dəyəri, şairin həyati mövzuya baxışından asılıdır. Həyati baxış Söz adamının düşüncəsinin həyat alqısını yaradaraq, insan düşüncəsinin iç üzünü ortaya qoyur.

Sərin Gül Sadənin lirikasının həyat predmeti insanın qəlbi və ağlının könül vəhdətindən doğan duyğusal baxışdır.

Baxış var ki, cəhənnəmi andırar,
Baxış var ki, ümid şamı yandırar.

Baxış var ki, mənasızdı-qurudu,
Baxış var ki, axar sutək durudu.
(Baxış var ki...)

Sərin Gül Sadənin lirikasının həyat fəzilləti onun həyat qayğılarının aydınlığı ilə,

oxucu ruhuna yaxınlığının görsəlliyi ilə diqqəti cəlb edir. Şairənin şeirlərinin həyat ünvanı insanı özünə yaxınlığı ilə bilinən övladları, ailə üzvləri, dost və tanışlarıdır.

Öz cığırı, öz izi var,
Bizim Könül Köşkümüzün.
Deyilməmiş yüz sözü var,
Bizim Könül Köşkümüzün.

Hələ qönçə, təzə-tərdi,
Kişiləri igid, ərdi.
Xanımları ləl, gövhərdi,
Bizim Könül Köşkümüzün.
("Bizim Könül Köşkümüz")

Poeziyanın həyati obrazı insandır. Hər bir insanın xarakteri onun duyğularının müxtəlifliyini yaradır.

Sərin Gül Sadənin lirikası öz spesifikası ilə, yaratdığı həyat əsərinin ideya məfkurəsi ilə, zamanı insanın həyat aynasında nəzərdən keçirərək, oxucusunun fikir alqısına təsir göstərir.

Adam var ki, göydən enən mələkdi,
Adam var ki, özü boyda kələkdi.

Adam var ki, könülləri şad eylər,
Adam var ki, şeytan ondan dad eylər.
("Adam var ki...")

Sözün həyat dəyəri həmişə şeirin həyat ruhunu həyatla özləşdirir. Həyati düşüncənin açarı sözün ruhi ifadəliliyidir.

Sərin Gül Sadənin lirikasının fikir açarı onun sözünün məna çalarına sahibliyidir.

Söz var, rəngini soldurar,
Söz var, saçını yoldurar.
Söz var, qapını bağlayar,
Söz var, sinəni dağlayar.
("Söz var...")

Poeziyanın həyat tutumunun yaranması insanın həyat eşqinə bağlılığı ilə yaranmasındadır. İnsanın ruhi həyat düyünləri, onun eşq bağının həyat ruhu ilə yaranır.

Sərin Gül Sadənin lirikasının həyat fəlsəfəsi onun həyati düşüncəsinin ruhu saflığını yaradan eşqə olan münasibətində axtarılır.

Eşq Tanrının sözüdü,
Eşq həyatın özüdü.

Eşq insanlıq barıdı,
Aydan-gündən aridi.

Eşq səhranı bağ eylər,
Eşq üzləri ağ eylər.
Eşq sevinclə doludu,
Eşq cənnətin yoludu.

("Eşq")

Sərin Gül Sadənin lirikası həyati lirikadır. Həyati duyğuların ülviyyəti, insan qəlbinin ağrı-acısı ilə oxucunu sehirləyir. Şairənin lirikasının həyati- psixoloji duyğsallığı insan ruhunun gözəlliyini riqqətə gətirir.

Gəlin hörmət edək ata-anaya,
Belə iş xoş gələr uca Mövlaya.
Sevgidən hər evdə yanarsa çıraq,
Qəm-qüssə o evdən qaçar çox uzaq.

Düzlüyə öyrətsən, əgər balanı,
Dönüb sənə deməz heç vaxt yalanı.
Yaxşı tərbiyə ver övladlarına,
Aldanma dünyanın dövlət-varına.

Oxuyub mükəmməl bilən "Quran"ı,
İtirməz heç zaman dini-imanı.
Əli çalıb-çapsa, dil desə yalan,
Demək ki, o insan ilandı, ilan.
("Nəsihət")

Sərin Gül Sadənin poeziyası ruh poeziyasıdır. Şairənin lirikasının həyat ruhunda insanlığın həyat dərdlərinin aydın üzü var. Klassikliklə müasirliyin həyat vəhdəti, şairənin lirikasının ruh aləmini bəyan edir. Qoşma, gəraylı, rübai, təkbeytlər, bayatılar, laylalar və oxşamalar həm janr cəhətdən, həm də həyati-fəlsəfi baxımından olduqca estetik və etik düşüncənin məhsuludur.

Sərin Gül Sadə şeir xatirinə şeir yazmır. Şairə insan ruhunun həyat ruhunun sağlamlığı, ülviyyəti naminə həyat və könül əsərləri yaradır.

Soy-kökümü danmıram,
Düz sözü tərs qanmıram.
Oda düşüb yanmıram,
Mən dədəmin qızıyam.
("Mən dədəmin qızıyam")

Şairənin həyat amalı olduqca kreativ həyat düşüncəsinə sahibliyinin ritorikasına uyumlu olmasındadır. Ailə bağına sədaqəti, milli-mənəvi dəyərlərin üstünlüyü Sərin Gül Sadənin lirikasının həyat məntiqini doğrulayır.

Təmiz olub ürəyi,
Halal yeyib çörəyi.
Öyrədib düz deməyi,
Atam Ömər müəllim.

Eldə olub hörməti,
Elm-savad sərvəti.
Ömür sürüb möhnətli,
Atam Ömər müəllim.
("Atam Ömər müəllim")

Sərin Gül Sadə söz sənətini öz ruhu qədər sevən el şairəsidir.

Şairə həm məhsuldar, həm də söz sənətinə bağlılığı ilə seçilən məsuliiyyət hissi ilə yazıb-yaradan, xalqın məişət duyğularına həyat verən söz adamıdır.

Şairənin indiyə qədər irili-xırdalı dörd şeir kitabı işıq üzü görüb. "Bayatı çələngi" (2021), "Könlümün barı" (2022), "Könül

körpüsü" (2023) və iki miniatür - "Bayatılar"(2023), sonuncu isə "Cinaslı bayatılar"(2023) şeir kitabları oxucuları tərəfindəın rəğbətlə qarşılanıb. Sərin Gül Sadə sinəsi sözlə dolu, ilham pərisi göylərdə olan xanım-xatın davranışa sahib şairələrimizdəndir. Bir rübaisində dediyi kimi:

Səringüləm, gülüstanda gül mənəm,
Könülqırmaz, ürəkaçan dil mənəm.
Yer altından püskürən od ahımdı,
Əsli yandı, yanmamışkən kül mənəm!
("Könlümün barı", Bakı-2022, səh. 276)

Müasirliklə klassikliyin vəhdətini yaradan Sərin Gül Sadənin poeziyası çağdaş poeziyamızın inkişafına və zənginləşməsinə töhfə verməkdədir. Şairə xanıma bol-bol yaradıcılıq uğurları arzulayıram.

19 aprel 2025-ci il

USTAD SÖZÜ SƏNƏTKARLIĞIN ZİRVƏSİDİR

"Ustad" sözü, sənətkarlığın zirvəsində dayanan sənət adamının həyat profilidir.

Sənətin amalı, insanlığın dəyərini üzə çıxartmaq və gözəlliyin həyatiliyini göstərə bilməkdir.

Sevgi ilə yanaşmaq həyatiliyi üzə çıxardır daim.

Sərin Gül Sadənin bayatı dilində oxucu ilə ünsiyyət qurması, onun həyati inamının dürüstlüyünü inşa edir.

Tərs alıbdı,
İşləyib tər salıbdı.
Sadə bilgisiz deyil,
Ustaddan dərs alıbdı.

Gəl atma, dərd oxunu,
İlmətək dərd "toxunu".
Şumlayıb könül bağım,
Yar səpib dərd toxumu.

Düşüncənin fikir alqısı sözün həyat fəzilətini aydına çıxaran vasitədir.

Duyğuların həssaslığı insan ruhunun qeyri-adi cazibəsini göstərir.

Məntiqi nəticəni tapmağa çalışmaq rasional düşüncənin psixoloji halının dəyişimini yaradır.

Sərin Gül Sadənin bayatılarında fikrin sağlam düçüncədəki yeri öz üstünlüyü ilə seçilir.

Yatam mən,
Dincələm mən, yatam mən.
Fəda etdim eşqə can,
Natamam, ya tam mən?!

Gül əkəm,
Bülbül baxmaz gülə kəm.
Girəm yarın gözünə,
Ürəyinə gül əkəm.

Ruhun ağrı-acısını üzə çlxartmaq könül işidir.

Sevdalı könüllərin həyat ruhu ilə oynamaq qəlbin sağlam düçüncədəki yeri ilə bəllənir.

Hisslərin yaratdığı ehtişam insan hisslərinin həyata baxış bucağının göstəricisidir.

Sərin Gül Sadənin bayatılarının mövzusunun çeşidlənməsi olduqca kövrəldici hisslərlə yaşanan ömrün cilvəsini ifadə edir.

Göynədən,
Dərddi ürək göynədən.
Bizləri Yer saxlayır,
Asılıdır göy nədən?!

Bürüdün lələ məni,
Verdin yad ələ məni.
Dilinnən yandırıbsan,
Əlinnən ələ məni.

Bayatı dili həyatın qəm dilidir.
Bayatı dili həyatın ruhunun dilidir.
Bayatı dili həyatın hikmət dilidir.

Həyatın qəm dilinin abaforası həyati düşüncənin fikir kamilliyini üzə çıxartmaqla özünün iradi dayanıqlığını aşkarlayır.

Ruh dili ilə fikir alqısı yaratmaq, insan hisslərinin oyanıqlığını üzə çıxartmaqla mümkündür.

Hikmətin ecazkarlığını duyurmaq, insanın mənəvi aləminin qeyri-adi həyat dərdlərinin ocağını alovlandıran düşüncə-

nin həyati sorğulanmasının təmin edilməsidir.

Sərin Gül Sadənin bayatılarında fikrin sağlam müstəvidəki həyat ruhu canlanır.

Qəm nədən,
Nə sünbüldür qəm, nə dən.
Hara düşsə kök atır,
Yarpaqlanır qəm nədən?!

Güləsən,
Ağlayasan, güləsən.
Tikan, kökün qurusun,
Sarmaşanda gülə sən!

Sözün əsl həyati mahiyyəti insan qəlbinin həyat sıxıntısını aradan qaldırmağa xidmət etməsidir.

Fikirlərin səslənişi duyğuların təbii vəhdətini doğrulayır.

Yaradana sığınmaq insanın həyati inamının qazanılması ilə ölçülür.

Sərin Gül Sadənin bayatılarının ana qaynağı ruhun ağrı-acısını bəlli edən düşüncənin məntiqi-psixoloji halının duyarlılığıdır.

Bayatı qəm yeridi,
Bəxtimin kəm yeridi.
Atam bayatı dedi,
Gözümə nəm yeridi.

Haqdan verilib adı,
Ağlı dərin dəryadı.
Agah olun, Sadənin,
İladidi ustadı!

Bayatıların ruhu ilə insanın fikir mübadiləsini idraki olaraq həyata bağlamaq sevginin ülviyyətinə işıq salır.

Qəlbin sağlam ruhu ilə könüllərə sevgi daşımaq fikrin əbədi məşəlini həyati olaraq alovlandırır.

Ruhi-iradi güclə oxucunu həyatın ruhu ilə qarşı-qarşıya qoymaq, düçüncənin kamilliyiini üzə çıxardır.

Sərin Gül Sadənin bayatılarının mövzusunun müxtəlifliyi, həmişə insanlığın həyat dərdlərinin metaforasını inşa edir.

27 may 2025-ci il

1-ci FƏSİL

SÖZ SƏNƏTİNƏ GƏLİŞİ, TALEYİN HƏYAT NAXIŞI

Söz sənəti ruhun həyati imitasiyası ilə meydana gələn, könül həyəcanı ilə ortaya çıxan incəsənətin ən aparıcı növüdür. Söz sənətinin yaranması fərdi düşüncənin həyati pozitivliyini yaradır. Fikrin və düşüncənin subliminal ecazı duyğuların incə məqamlarını yaradır.

Həyatın idrakı-ruhi spesifikliyi insanın xəyal dünyası ilə real həyatı arasında körpü yaradır. Qəlbin həyat istəyi insan düşüncəsinin həyat obrazı ilə daim üz- üzə qalır. İnsanın ruh dünyası ilə məişəti arasında olan duyğu və hisslərin bütövlüyü onun həyatı dərketməsini gücləndirir.

Söz dünyasına gələn hər bir kəsin özünəməxsus bir iç dünyası var. İnsanın iç dünyası ilə zahiri dünyası arasında olan ruhi oxşarlıq insanın hərəkət və davranışlarını tənzimləyir.

Çılğın ruhun hərəkət və dayanıqlığı insanın könül alqoritminin sürəkliliyi və narahatlığı ilə müşahidə olunur.

Sərin Gül Sadənin həyatını oxuyanda onun söz dünyasına qapı açan həyat hadisələrinə biganə olmaq mümkün deyil. Şairənin ömür sürəcinin həyat əlifbası onun ilk gənclik illərindəki keçməkeşli taleyinin payına düşür.

Sərin Gül Sadə 1958-ci ildə dövrünün tanınmış pedaqoqu, qədim Borçalı elinin Başkeçid rayonun Qızılkilsə kəndində yaşayıb-yaradan Orucov Ömər Nəbi oğlunun (1918-1998) səkkiz övladının altıncı istedadlı övladı olaraq dünyaya gəlmişdir.

Ziyalı ailəsində anadan olmaq həyata fəal münasibət yaradır. Elə buna görədir ki, Ömər Nəbioğlunun ailəsində İladi Ömərоğlu, Səadət Buta və Sərin Gül Sadə kimi şairlər, fizika-riyaziyyat elmləri doktoru Vidadi Orucov (1957) kimi alim yetişib.

Ailədə sözə-sənətə bağlılığı həm irsi, həm də intellektuallığın ən bariz örnəyi kimi anlamaq lazımdır, ilahinin öz lütfünün neməti kimi düşünülməlidir.

Sərin Gül Sadənin atası Ömər müəllim də, anası Xanım ana da (1921) sinəsi sözlü, bayatılı-nəğməli insanlar olub.

Belə bir ailədə doğulub boya-başa çatmaq həyatın naxışıdır.

Hər iki valideyinin söz adamı olması Orucovlar ailəsinin söz dünyasına ilahi bir töhfəsidir.

Sərin Gül Sadənin həyatı və yaradıcılığının qırx illik bir dövrü onun sənət dünyasına gəlişinin heç də təsadüfi bir gəlış olmadığını göstərir.

Hər bir insanın doğumu onun həyata gəlişini sevincə bürüsə də, onun əməli, işi ilə tanınması onu həyatdakı mövqeyi ilə şərtləndirir.

Sərin Gül Sadə hamı kimi məktəbə getdi, 1975-ci ildə orta təhsilini bitirdi.

Ailə qurandan sonra Bakıya daimi yaşamağa köçən şairə 1990-cı ildə texniki peşə məktəbinin şirniyyat şöbəsini, bir müddət sonra isə - 1992-ci ildə mühasibat uçotu kursunu bitirərək öz həyatının naxışına rəng qatmışdır.

Şairənin həyat naxışının ən kədərli notu çox erkən həyat yoldaşını – dayısı oğlu Bəkiri faciəli şəkildə itirməsi olub.

Həyatın ən böyük acısı ilə üzləşən Sərin Gül Sadə həyatdan küsməmiş, qızı Elnarə Bəkir qızını və oğlu İsmayılov Teymur Bə-

kir oğlunu qoynuna alaraq böyütmüş, onlara layiq analıq borcunu yerinə yetirmişdir.

Sərin Gül Sadənin həyatında dönüş nöqtəsi onun cəsarətlə addım ataraq ikinci dəfə xarici bir vətəndaşla ailə qurması olub.

Ailə qurmaq hər bir kəsin doğal haqqı olsa da, onun çətinliklərinə sinə gərərək addım atmaq insan taleyinin həyat oyunlarını yaradır.

Ağılla, müdrikliklə qurulan ailə həyatının rəngarəngliyi bəşəri olaraq həyati və könül işidir.

Sərin Gül Sadənin 2000-ci ildə ikinci dəfə ailə həyatına yenidən davam deməsi bir azərbaycanlı xanım kimi ailə dəyərlərinə sahibliyini göstərir.

Şairənin ikinci dəfə ailə qurduğu bəy Graham Riçard Smit 1953-cü ildə Şotlandiyada - Birləşmiş İngiltərə Krallığının Partshine əyalətində anadan olub.

Atası - Kenneth Leslic Smith.

Anası - Joan Doren Richards.

Graham Smit orta məktəbi U. K-nu (Böyük Britaniya) bitirəndən sonra 1968-ci ildə əsgərilikdə - hərbi xidmət zamanı avia-

siyada xidmət göstərmişdir. Yeddi il hərbi pilot olub. 1975-ci ildə hərbi pilot zabiti olaraq öz xidmətini başa vurmuşdur.

Graham Smit istefaya çıxdıqdan sonra öz həyatını elmə və söz sənətinə həsr etmişdir.

1995-ci ildə doktorluq dissertasiyası müdafiə edərək 2002-ci ildə ali mükafata - doktorluğa layiq görülmüşdür.

Graham Smit beş dil bilir. Əli İldırımoğlunun "Közərən ocaqlar" kitabını ingilis dilinə çevirmişdir.

Graham Smitin şeirlərinin bir qismini şairə Zeynəb Cəmaləddin Azərbaycan diilinə çevirmişdir.

Graham Smitin də həyat yolunda olduqca kədərli nüanslar var, üç yaşında anasını itirib. O, bibisi İrenenin himayəsində böyüyüb.

Sərin Gül Sadənin Graham Smitlə iyirmi beş ilə yaxın davam edən evliliyi ən nümunəvi ailə örnəyidir.

Bu ailənin xoşbəxtliyinin əsl səbəbi ilahi sevgiyə, söz-sənət sevgisinə, könül birliyinə dayanmasıdır.

Bəşəri sivilizasiyanın beynəlmiləl səpkidə davamlılığı yeni insani münasibətlərin,

o cümlədən, ailə münasibətlərinin bəşəri xarakterini üzə çıxardır.

Zamanın tələqin etdiyi humanizm prinsipləri elm və sənətin anlayışlı şəkildə insanlığa xidmət etdiyini göstərməkdədir.

Bir şairənin sənətə gəlişi onun ömür yolunun həyat naxışını bariz şəkildə zamana yayır.

Özünəgüvən sənətin həyat həqiqətlərinə gedən yolunun işığını artırır. Söz sənətində özünəinam həyati duyğuların pərvazlanmasına yol açır. Sənəti sevmək, sənətə bağlılıq yaradır.

Sərin Gül Sadənin özünə inamı onun özgüvənini yaratmaqla lirikasının orjinallığını üzə çıxardır.

Aşıq mənəm, ozan mənəm,
Dərdi-səri yazan mənəm.
Fələk çalan havaları,
Sındıran mən, süzən mənəm!

Xeyri-şəri qanan mənəm,
Oda-közə yanan mənəm.
Dağda-daşda gül axtarma,
Baxçada gül, reyhan mənəm!

("Mənəm")

Sərin Gül Sadənin şəxsi həyatının onun sənətinə yansıması şairənin həyat ruhunun, könül açılımına olduqca böyük təsir göstərmişdir. Şəxsi həyat döngüsünün faciəvi sonu şairənin yeni həyatında sənətə baxışını da yenidən düzənləmişdir. Ruhun yeni düzəni sənətkarın həyata yeni baxışının - həyat obrazının yaranmasına vəsilə olmuşdur.

Gəzdim qəm-hicranın neçə dağını,
Güldür indən belə qəm otağını.
Allahım, sevindir mən dərdimməndi,
Açılsın boynumdan dərdin kəməndi.
Adın dilimdədir, gecə-gündüz də,
Göstər kərəmini qalmayım düzdə.
Selə-suya düşüb axdığım yetər,
Şadlığa uzaqdan baxdığım yetər.
Məndən əsirgəmə heç kərəmini,
Göstər sən Sadəyə sevinc dəmini.
("Sadəyəm, xatirəm qalsın, söylədim")

Yaradana inam Sərin Gül Sadənin lirikasının həyat məntiqini açıqca göstərir. Şairin həyatında baş vermiş acı olaylar onun Yaradana olan inamınını daha da gücləndirir.

Sərin Gül Sadənin lirikasının ana frazası Yaradana olan sevginin gerçək sevgi kimi alqılanmasına olan inamın yaradılması ilə ölçülür.

Günahı var hər bəndənin,
Hər bir ömür eyləyənin.
Allah, Allah söyləyənin,
Bir gün Kəbə yolu olar.

Ədəb ərkanı bilənin,
Haram yox, halal yeyənin.
Sözünü doğru deyənin,
Bəxt-qisməti, doğru olar.

Yatızdıra qalmaqalı,
Eldən bərəkallah alı.
Kimdi ağsaqqal misalı?
Sadə onun qulu olar.
("Olar")

Sərin Gül Sadənin sənətə gəlişi heç də təsadüfi olmadığı kimi, onun həyata, insanlara baxışı da adi deyil. Şairə həyatın ən dərin duyğularını könül süzgəcindən keçirərək, ictimai cəhətdən dəyərləndirir və ən ülvi şəkildə oxucuya təqdim edir.

Şairənin həyatı, duyğuları, məişəti çox aydın və sadə şəkildə oxucuya çatdırmaq fitriliyinə görə, onun ustad şair qardaşı İladi Ömərоğlu Səri Gülə "Sadə" ədəbi təxəllüsünü vermişdir.

Həsrətinə dözəmmədim,
Açdım dərdim çaya dedim.
Gündüzlər günə söylədim,
Gecə xəlvət Aya dedim.

Mən qalmışam boran-qarda,
Yar qoyarmı, yarı darda?
Gülüm solub ilk baharda,
Yetiş dada-haya dedim.

Çək gözümü cığır, yoldan,
Qurtar məni qeylü-qaldan.
Sadə bezib dərd-məlaldan,
Gəl olma daş-qaya dedim.

("Dedim")

Poeziya Sərin Gül Sadənin həyatıdır. Şairə həyata baxışını, hisslərini şeirlə ifadə etməklə söz sənətinin gözəlliyinin mənəviyyat üstündə hakim olduğunu göstərir. Şairənin həyat naxışı nə qədər zəngin olsa

da, dünyanın 74 ölkəsini gəzib dolaşsa da, onun sevdiyi ancaq öz doğma Vətəni olan Azərbaycandır.

Ümid yerim Azərbaycan,
Torpağın ləl, daşın mərcan.
Yaşamaram sənsiz bir an,
Sən nəfəsim, mən quru can,
Azərbaycan, Azərbaycan!

11 aprel 2025-ci il

2-ci FƏSİL

KÖNÜL DÜNYASININ KƏŞFİ

Sözün bədii etetikası daim insanın həyat obrazının ifadəsi üçün meyardır. Həyati düşüncənin ifadəsi adi halda ünsiyyəti yaradır. Ünsiyyətin ruhi cəhətdən həyati mübadiləsi müstəqim mənada məişəti tənzim etsə də, ədəbi mənada mənəvi tələbatı ödəyir.

Poetik aləmin həyat imici həmişə insanın ruhi həyat aləminin tablosunu yaradır. İnsanın özünü ifadəsinin əsl araçı ilk növbədə onun sözüdür. Sözün emprik cəhətdən yaranması insanın həyati istəyinin meydana gəlməsi ilə mümkündür.

Sərin Gül Sadənin söz sənətinə gəliişi heç də təsadüfi gəliş deyildir. Şairənin söz sənətinə gəlişi onun könül dünyasının həyat istəyinə bağlılığı ilə əlaqədar olmağına şübhə yeri qoymur.

Könül anlayışı həm mənəvi, həm ruhi, həm də həyati anlayışdır.

Mənəvi anlayış kimi könül anlayışı insanın arzu və istəklərinin impotensiyasını yaradır.

Ruhi anlayış kimi könül anlayışı öz fərdiyyəti ilə seçilir.

Həyati anlayış kimi isə könül anlayışı bəşəri düşüncənin ümumi həyat istəyinin anlayışı kimi daim həyati ümumiləşdirməni ehtiva edir.

Sərin Gül Sadənin poeziyaya gəlişi həm həyati, həm ruhi, həm də fərdi mənada həyati qanuniliyə uyğun şəkildə sözün ictimai-ruhi qəlibinə sığaraq, özünü təsdiq etməyə başlamışdır.

Şairənin söz dünyasına könül verdiyi andan etibarən istək və arzuların həyat tablosu öz əksini tapmışdır. İstək və arzuların genişliyi və səmimiyyəti şairəyə könül dünyasının qapısını taybatay açmışdır.

Gahdan qəvvas olub dəryada üzür,
Eyləyir min arzu-diləyi könlüm.
Gahdan quşa dönüb göylərdə süzür,
Tanrıdan gözləyir köməyi könlüm.

Gahdan dalğalanır, dönür ümmana,
Gahdan kainatı çəkir nizama.

Gahdan ətrafını salır sahmana,
Güldürmək istəyir ürəyi könlüm.
("Könlüm")

Könül dünyasının yeri "könül evi"dir. Hər bir insanın öz könül evi onun arzu və istəklərinin həyat imicinə bağlıdır. Könül imici insanın duyğularının səmimiliyini yaradır.

İnsanın ruhu onun həyat istəyini meydana gətirməklə ona stimul verir. Həyati stimul insan duyğularını hərəkətə gətirməklə, insana həyat müdrikliyini öyrədir.

İnsan dünyabaxışı, düşüncənin genişliyi ilə həyata addım atır.

Sərin Gül Sadənin könül evi dünya qədər geniş və hüdüdsuzdur.

Könlümün evinə bir dünya sığar,
Yoxdu zərrə orda yalana yeri.
Göydə Ay-ulduza, Günəşə dayaq,
Yerdə aşiqlərə peymanə yeri.

Güllü gülüstandı, Bağı- İrəmdi,
Qonağı ərənlər, nuri-didəmdi.
Gah çayır-çəməndi, gah yanan şamdı,
Mənim ürəyimdi pərvanə yeri!
("Könül evim")

Könül dünyasının həyat üzündə insanın həyat dərdlərinin sıralanması insanı mənəvi cəhətdən yorur. Mənəvi yorğunluğun könül titrəşimi ruhi hissiyyata öz təsirini göstərməklə insana yol göstərir, ona həyati dözüm öyrədir.

İnsanın həyati duyğusallığı daim könül iztirablarını psixoloji olaraq aydına çıxarır.

Sərin Gül Sadənin lirikasının könül qayğıları həyati olaraq yaşamın həyatiliyini təsdiqləyir:

Mürgüləyib yatan bəxti neylərəm,
Nəyimə lazımdır yar indən belə.
Ayaq getmir, baldır əsir, diz çökür,
Gözləyir yolumu gor indən belə.

Fələk mənə neçə dəfə tor qurub,
Dörd tərəfim, yarğan olub, göl olub.
Bostanımı şaxta vurub, çor vurub,
Çətin görə billəm bar indən belə.
("İndən belə")

Dünya həyatı insanın gündəlik məişət həyatının gedişini üzə çıxardır. İnsanın mənəvi həyatı, onun dünya həyatı ilə üzüzə dayanması ilə müşahidə olunur daim.

Həyatı düşüncənin dünyəvi və ruhani tərəfi insanı həyata hazırlayır. Həyat nizamının doğru və yanlış davamı insanın könül dayanışmasını qüvvətıəndirir.

Sərin Gül Sadənin lirikası könül ahəngi ilə həyatın nəbzini tutur.

İmanı var, inamı var,
Yaxşısı var, yamanı var,
Doğrusu var, yalanı var,
Bu dünyanın, bu dünyanın.

Rəncbəri var, ağası var,
Toy-nişanı, qəm yası var.
Qalmaqallı qovğası var,
Bu dünyanın, bu dünyanın.

("Bu dünyanın")

Könül dünyası insanın həyatının ruh atributudur. Ruhi həyatın psixoloji duyumu, könül nəvazişini yaradır. İnsanın sevgisi və məhəbbəti də, iztirab və kədəri də insan könlünün həyat meyvəsidir.

Həyati duyğuların səmimiyyəti insan könlünün psixoloji duyğusallığını tətikləyir.

Könül havası insan ruhunun həyatiliyini bərpa edir. Sərin Gül Sadənin lirikası-

nın gözəlliyi ilə ruhi duyğuların ülviyyəti bir-birini tamamlayaraq, həyatın məntiqinə öz nöqtəsini qoyur.

Havalı könlüm,
Davalı könlüm.
Bəxti, iqbalı
Qaralı könlüm!

Yaralı könlüm,
Aralı könlüm.
Hicran əlindən
Saralı könlüm.

Ay dəli könlüm,
Şəppəli könlüm .
Qəm harda varsa,
Oralı könlüm.
("Könlüm")

Poeziyada həyati düşüncənin yaranması duyğuların həyati dinamikasına nə qədər bağlıdırsa, hisslərin həssaslığı bir o qədər həyatın aforizmini üzə çıxardır.

Sərin Gül Sadənin lirikasının könül istəyinin həyat sevgisində insan düşüncəsinin

aliliyi insanın duyğu və hisslərinin bütövlüyünü bəlli edir.

Könül duyğularının həyati kəşfi insanın söz dünyasının alqoritminə yol açır.

12 aprel 2025

3-cü FƏSİL

HƏYATA YENİ BAXIŞ, DUYĞULARIN HƏYAT SİNTEZİ

Poetik düşüncə həmişə öz emosional tərəfi ilə insan duyğularını, ictimai yönü ilə həyatı izah etməyə yönləndirir. Həyati duyum insanın öz ətrafına biganəliyini aradan qaldırır. Ruhi-psixoloji düşüncənin həyat alqısı ilə insan həmişə həyatın ən dərin qatlarını kəşf etməyə çalışır.

Sərin Gül Sadənin lirikası zamanın həyat tablosuna öz yeni yaklaşımı ilə, daim həyatın yeni duyğuları ilə oxucunun həyat sevdasını yeniləyir.

Dünya yoldu, biz o yolun yolçusu,
Axirətdi həmin yolun son ucu.

Dünya yatmış bir zəhərli ilandı,
Hara qaçsan, tapıb səni çalandı.

Dünya yatıb, haray salıb oyatma,
Uduzarsan, mərcə girib, oyatma.

Dünya bazar, alış-veriş meydanı,
Tora salıb, müflis edir insanı.
("Dünya")

İnsan həyatının dünya həyatına yanaşma tərzi onun həyat sosiolojisini ortaya qoymaqla yeni həyat baxışını formalaşdırır. Hər bir insanın həyata yanaşması nə qədər fərqli olsa da, onun ümumi həyat tərzi ilə uyğunluğu mütləqdir. Həyati yeniləşmə zamanın həyat tamaşasına çevrilməklə insanın həyat duruşunu yeniləyir.

Sərin Gül Sadə həyatı, insanın həyata baxışını, həyati-psixoloji yanaşma ilə izah edir.

Öyünmə hər zaman "gözələm" deyə,
Gözəllər içində bir lələm deyə.
Dövrandan xəbərin yoxdu bəs niyə?
Fələk sənin kimi çox gül soldurub.

Gözəldən gözəlin yaradıb dünya,
Telin sığallayıb, darayıb dünya!
Sonra dava-dərman arayıb dünya,
Başlara döydürüb, saçı yoldurub.
("Öyünmə")

Yeni əsrin insanı öz həyat dərdləri ilə nə qədər baş-başa qalsa da, o keçmişin ən

sınanmış həyat vərdişlərini davam etdirməyə, hətta onu qoruyub saxlamağa mənəvi cəhətdən borcludur. Həyati dəyərlərin qorunması insanın mənəvi- əxlaqi həyat dəyərlərinə münasibətini sağlamlaşdırmaqla, onun ruhi həyat duyarlılığını yenidən nizama salınmasına da kömək edir.

Həyati dəyərlərin mövcud ənənə üzərindən davamlılığını saxlamaqla, insani duyarlılığın vacib şərtlərini yerinə yetirməyə götürür insanı.

Sərin Gül Sadənin poeziyasının həyatiliyi insanın yeni həyati dünyagörüşünə yiyələnməsinə yol açır.

Mənə dost olduğun söyləyən sənsən,
Məni haya basıb, küyləyən sənsən.
Düşmən etmədiyin eyləyən sənsən,
Halal eyləmirəm sənə zəhməti,
Daha qalmayıbdı sənə rəğbətim.

Olmusan qarğaya-quzğuna yoldaş,
Tülkütək hiyləndən açılmayır baş.
Axıtdın gözündən leysan kimi yaş,
Halal eyləmirəm, Sənə zəhməti,
Qəsd edib artırdın qəmim-möhnətim.

("Halal eyləmirəm")

Yeni əsrin insanınn həyati etiqadı onun həyati etiqadının həyat düzənini yaratmaqla, həyati sorumluluğunu artırır. Həyati mürəkkəblik, insanın psixoloji həyat xarakterinin spesifikliyini, fərdiliyini üzə çıxardır. İnsan xarakterinin həyati düşüncədəki formal və qeyri-adiliyi onun iç dünyasının həyati üzünü işıqlandırır.

Sərin Gül Sadənin lirikası öz həyat ahənginə uyğun olaraq insanın psixolojisini poetikcəsinə izah edir.

Canavar ağızlı, bayquş gözlüdən,
Şər-böhtan danışan yaman sözlüdən.
Səfil-sərgərdandan, sırtıq üzlüdən,
Allahım insanı uzaq eyləsin.

Kinli-küdurətli, paxıl olandan,
Ürəyi nifrətlə tamam dolandan.
Yetimin malını zorla alandan,
Allahım insanı uzaq eyləsin.
("Allahım insanı uzaq eyləsin")

Həyat yolçuluğu insana həyatın psixolojisini idrak etdirir. İnsan yaşaya-yaşaya həyati təcrübəyə yiyələnərək, özünün həyat mövqeyini müəyyənləşdirir.

Fəal həyat mövqeyinin yarasdılması həyati düşüncənin praktikliyinə, onun ənənə və yeniləşməsinə gedən yola qapı açır. Həyatın dünya məfhumu ilə sinonimliyi həmişə insanın həyat düşüncəsinin adekvatlığını yaradaraq onun həyat impotensiyasını gücləndirir.

Sərin Gül Sadənin lirikasının həyati-psixoloji yeniliyi insan duyğularının həyata simpatikliyini təsirli hala motivə edir.

Ay oğul, inanma kimlər söyləsə,
Yalandı, talandı, virandı dünya.
Eşqlə yaranıb, eşqdən doğulub,
Sevgisini Haqdan alandı dünya.

Fərq qoymaz kimsəyə, budu qaydası,
Pozulmaz növrağı, nə də sırası.
Bir körpüdü, haqq-nahaqqın arası,
Gələnləri yola salandı dünya!
("Dünya")

Duyğuların həyati ülviliyi insan hisslərini yumşaldır. Könül sevgisinin axtarışı duyğuların mənəvi-ruhi alqısını üzə çıxartmaqla qəlbin mütəvaziliyini aktiv hala gətirir.

Həyati duyğusallığın yükü daim insani hərəkətlərin həyat düşünərliyinə yön verir.

Sərin Gül Sadənin lirikası öz ruhi hissiyyatı ilə insan duyğularının həyatla sintezinin lokalizasiyasını kamilləşdirir.

Minib cin atına dördnala çapır,
Dönüb ildırıma başıma çaxır.
Baxmır ağa-boza, yandırıb-yaxır.
Yağı cəllad olur kədərim mənim.

Acıqlı aslandı, inadlı dəvə,
Bənzəyir sifəti yeddibaş divə.
Sığışmır dünyaya - Yerə, nə göyə,
Dolduqca hey dolur kədərim mənim.
("Kədərim mənim")

Poetik düşüncə öz qidasını həyatdan almaqla, insanın hiss və duyğularının həyat pozitivliyini yaradır. Poeziyanın ruhi düşüncəni neqativdən çıxararaq, onu həyati duyğulara çevirməsi həyati imitativliyin özləşməsinə yol açmaqdadır.

Sərin Gül Sadənin poeziyası həyati poeziya kimi zamanın həyat insanının duyğu

və düşüncələırini fenomenal şəklidə ayarlayır.

Şairənin şeirləri oxucunun duyğu və düşüncələrinə ciddi iz salır.

Hər bir şeirdəki düşüncənin könül acılımı həyati olaraq insanı düşünməyə vadar edir.

Könül həyəcanı ilə həyata yanaşma ruhi olaraq yeni həyat baxışını stimulizə edir.

14 aprel 2025-ci il

4-cü FƏSİL

HƏYATA RUHİ VƏ FƏLSƏFİ MÜNASİBƏT

Poeziya ruhun həyatiliyi və duyumunu öz könül şəffaflığı ilə üzə çıxardan incəsənətin ən aparıcı sahəsidir. Poetik duyum öz metaforik yanaşması ilə həyatın iç üzünü insan duyğuları, sözün həyat vurğusu ilə canlandırır. Qəlbin könül sevdalılığı həyati düşüncənin boy göstərməsinə, həyati dərketmənin animasiyasına yardımçı olur. Həyati fəlsəfiliklə ruhun birləşimi insanın fikir dünyasının çalxantılarına işıq tutaraq, həyatın izahını hikmət işığında nəzərdən keçirir.

Sərin Gül Sadənin poeziyasının ruhu ilə həyati fəlsəfiliyi birləşdirəndə, könül dünyasının həyat dialektikasının mahiyyəti əyani olaraq oxucunu həyatı ideallara yiyələndirir.

Cümlə-cahanı titrədir,
Mülki-Süleymandı ruhum.
Fizuliylə eşqdən deyib,
Xəyyamla dolandı ruhum.

Yarır Bisütun dağını,
Gəzir Məcnun oylağını.
Alıb Əsli sorağını,
Kərəmtək yanandı ruhum.
("Ruhum")

Ruhun insan təbiətindəki yeri onun həyati canlılığına yol açmasıdır. Ruh ağılla nəfsin həyat körpüsüdür. Ağıl insanın idrakı gücü kimi alqılanırsa, ruh ağılı hərəkətə gətirən qüvvə kimi psixoloji imitasiyanın çoşqusunu yaradır. Könül istəyinin cazibə qüvvəsi ağılla ruhun mənəvi birliyindədir.

Ruhi duyğusallığın mənfi və ya müsbət həyat üzü insan düşüncəsinin təbiətini dəyişdirir. Ruhi dəyişkənlik insanın davranış və hisslərinin potensialını, onun xarakterinin həyat keyfiyyətini aşkarlayır.

Sərin Gül Sadənin poeziyası ruhi və həyati fəlsəfiliyin ən cazibədar tərəfiylə həyatın mahiyyətini üzə çıxardır.

Qarma-qarışıq yuxuyam,
Yozammazsan demədimmi?
Qələm çalan belə çalıb,
Pozammazsam demədimmi?

Tanımır heç bəy-sultanı,
Eşq deyilən gənc meydanı.
Yıxılanın yanar canı,
Dözəmməzsən demədimmi?
("Demədimmi")

Fikir və düşüncənin həyat ahəngi ruhun həyat ahəngini yanşıdanda insan duyğuları öz potensialını bəlli edir. Həyat insanın məişət qayğılarına, onun ruhi həyat sevdasına həmişə ortaq olur. Qəlb sevdasının həyat üzü insanın ictimai həyat ideallarına daima yön verərək, onun həyatiliyini, krerativ duyğusallığını tənzimləyir. Həyat dərdlərinin üzüntüsü insani hisslərin imporivizasiyasını neqativləşdirsə də, sevginin ülviyyəti insan duyğularının müsbət imicini dəyişdirərək, həyatın dramitikləşməsinin qarşısını alır.

Sərin Gül Sadənin lirikası öz ictimai-fəlsəfi duyğusallığı ilə insanın həyati düşüncəsinin səmimiyyətinə aydınlıq gətirir.

Düşünmə ki, ağa, bəydi,
Zırramadı, dəli-səydi.
Hərəsi bir, qəlbə dəydi,
Budur sənin doğduqların.

Sizdə dedi-qodu çoxdu,
Böyük-kiçik qanan yoxdu.
Gəlin tülkü, oğul loxdu,
Budur sənin doğduqların.
("Sənin doğduqların")

Həyatın dərki hadisələrin sosial izahını asanlaşdırmaqla insanın ünsiyyət dairəsini genişləndirir. Fikir darlığı mahiyyət etibarı ilə insanı ünsiyyətdən saxlayır. Qəlbin təmizliyi insanın həyati duyğularının sosiallaşmasının mənəvi əsasını təşkil edir. Ruhi cəhətdən insanın həyatı tanıması onun səriştəliliyini artırır.

Sərin Gül Sadənin lirikası ən xırda həyat hadisəsinə diqqətlə yanaşması onun həyat fitrətinə olan münasibətini ortaya qoyur.

Hər vaxt üzə gülənin,
Tək sözü xoş gələnin,
Hamını bir bilənin,
Olmaz əhdi-ilqarı.

Yaramayan bir işə,
Çox danışar həmişə.
Saqqız olmaz, kirişə,
Sevindirər əğyarı.
("Olmaz əhdi-ilqarı")

İnsanın məişət dərdləri həmişə öz qayğılar zənciri ilə həyatın rəngarəngliyini yaradır. İnsanın sosial kimliyi, əməyin həyat üzünün ağırlığı və yüngüllüyü ilə insanın həyat duruşuna işıq salır. Həyat işinə könül işi kimi baxılması insanın əməyinin sağlam düzənini yaradır.

Həyati nizamın mövcudluğu insan düşüncəsinin həyati müdrikliyini yaradır.

Sərin Gül Sadənin lirikası insan əməyinin könül nəticəsinin reallığını sərgiləməkə həyati səadətin tablosunu çizir.

Mən tər tökdüm, bostan əkdim,
Yağış yudu,sel apardı.
Taxıl biçdim, günə sərdim,
Tufan qopdu, sel apardı.

Ömrüm keçdi, qeylü-qalda,
Karvan getdi, qaldım dalda.
Çoxalmadı dövlət, mal da,
Ağız yedi, əl apardı.

("Apardı")

Həyatın ruhi və fəlsəfi dərki insan düşüncəsinin aliliyini ucalığa götürür. Poetik fikir və düşüncənin həyat formulu sə-

nətin həyat estetikliyini yaradır. Həyat hadisələrinin kiçiyi və böyüyünə düşüncəli yanaşma, insan psixolojisinin adekvatlığını tənzimləyir. Həyati təhlil ruhun sağlamlığı ilə müşahidə olunanda həyati fəlsəfiliyin məntiqi sunucunun ruhla vəhdətini birləşdirir.

Sərin Gül Sadənin poeziyası ruhun həyat fəlsəfəsinin dialektikasına estetik yanaşma ilə oxucunu fikir aydınlığına çıxarır.

14 aprel 2014-cü il

5-ci FƏSİL

HƏYATİ DÜŞÜNCƏNİN "MAQNETİZMİ" VƏ SÖZÜN HƏYAT İŞIĞI

Həyati çəkicilik insanın insana olan ünsiyyət bağını yaradır. İnsani münasibətlərin yaranması həyati sağlamlığın genişlənməsinə yol açır. Düşüncənin həyat "maqnetizmi" insanlığın həyat kitabını yaradır.

Ədəb-ərkan, böyük-kiçik, yaxşılıq-pislik əxlaqının yaranması ilə insanlığın həyat kitabı yaradılır. Poeziyanın mənəvi düşüncədəki yeri, onun həyati sublimativliyinin əyaniliyi və həyati realitəsi ilə ölçülür. Hər bir şeirin həyat tablosu psixoloji duyğusallıqla müşahidə olunsa da, sonuc etibarı ilə insan həyatının bir parçası kimi ortaya çıxır.

Sərin Gül Sadənin lirikasının həyatiliyi onun həyati maqnetizminin olması ilə ölçülür.

Cürbəcürdü insanlar,
Bəzisi dost-havadır.

Bəzisi də, sanki qar,
Adam da var, adam da.

Biri canım parası,
Gözlərimin qarası,
Biri ürək yarası,
Adam da var, adam da.
("Adam da var, adam da")

Soy-kök insanın "gen kodları"nın yaddaş qutusudur. İnsanın bəşəri "gen kodu" eyni olsa da, onun milli fərqliliyi genetik həyat biolojisinin ictimai xüsusiyyətlərini yaradır. Milliliyin həyat dərsləri xalqın öz həyat və məişətinin həyat kimliyini üzə çıxardır. Şəxsiyyətin sağlam həyati dönüşü onun gen yaddaşının sağlamlığına xidmət göstərir.

Sərin Gül Sadənin lirikasının sosial mütəvisi özünün həyat imicinin milli dəyərlərə duyğusal münasibətini aşkarlayır.

Kök-soyumu danmıram,
Düz sözü tərs qanmıram.
Oda düşüb yanmıram,
Mən dədəmin qızıyam.

Mən bağlıyam elimə,
Bağ-bağçama, gülümə.
Yalan gəlməz dilimə,
Mən dədəmin qızıyam.
("Mən dədəmin qızıyam")

Sevgi duyğusu həyatın əsl qəlb sevdasının həyat üzüdür. Sevgi duyğusunu yaradan insanın həyat istəyinin moralizmidir. Qəlbin həyat istəyinin uzlaşısı insanın könül hisslərinin çəkiciliyini yaradaraq insanın həyat dərkini formulizə edir. İnsanın qəlbi onun könül istəyi ilə birləşəndə həyat sevgisi yaranaraq, həyati düşüncənin realıitəsinə yol açılır.

Sərin Gül Sadənin lirikası öz həyatiliyini sübuta yetirərək, oxucunun həyat sevdasına işıq tutur.

Gördümsə də, naz-neməti,
Dərk eylədim həqiqəti.
Unutmadım təbiəti,
Çəmən-çiçək, eli sevdim.

Ayrı düşdüm o Vətəndən,
Başkeçiddən, duman-çəndən.
Mən keçsəm də çox gülşəndən,
Yenə yurdu, eli sevdim!
("Sevdim")

Ölüm həyati gerçəkliyin real sonucudur. Həyat insanın ölümü realistcəsinə dərk etməsi üçün onun kamilliyini təsdiqləyir.

Həyat və ölümün fəlsəfi-idraki dərki müdrikliyin əsas atributu kimi sağlam düşüncənin gücünə güc qatır. İnsanoğlunun həyata gəlişi və gedişi nə təsadüfidir, nə də morfoloji olaraq qeyri- adidir.

İnsan təbiətin bir parçası kimi Yaradının ən ali əsəri kimi kainatın əşrəfidir.

Sərin Gül Sadənin lirikasınıln həyat standartı insan ruhunun bölünməzliyinin, əbədi yolçuluğunun qanunauyğunluğunun təsdiqidir.

Ölüm, Allah əmridir,
Yerin, göyün sirridi.
Fələyin bir zəhridir,
Ondan heç vaxt qaçılmaz.

Tapşırılıb mələyə,
Bıçaq çəkir diləyə.
Qorxu salır ürəyə,
Ona qucaq açılmaz.

("Ölüm")

Zəhmət insan həyatının xoşbəxtlik və səadət yolunun açarıdır. Bəşəri varlıq kimi insan öz halal zəhməti ilə özünə həyat quranda arzuladığı xoşbəxtliyə qovuşur. İnsan yarandığı gündən zəhmətin nə demək olduğunun şüurlu şəkildə dərk edir.

Çalışqanlıq və səylə insan öz həyatını dəyişdirərək, ictimai varlıq kimi bilik və bacarığı ilə insanlığın həyat yolçuluğuna başlayır.

Sərin Gül Sadənin lirikasında insan zəhməti həyati dolğunluğun əsl üzünü oxucuya göstərir.

Nə kəndli, nə şəhərlisən,
Dili yaman zəhərlisən.
Ötürməyə hünərlisən,
Çalışmaqla işin yoxdu.

Bilməyirsən cəhrə-daraq,
Ədəb-ərkan səndən iraq.
Təmizlənmir eyvan, otaq,
Nə də ki, biş-düşün yoxdu.

("Yoxdu")

Sözün həyat işığı insanın qəlb və həyat sevdasının dərinliyini, onun ruhi-psixoloji həyat duyumunu, könül həsrətinin varlı-

ğını üzə çıxardır. Sözün işlənmə yeri həyat ahəngi ilə uzlaşanda düşüncənin məntiqi nəticəsi əldə olunur.

Sözçülüklə fikir yürütmə arasında dərin uçurum insanın həyat varlığının həyat təcrübəsi ilə uzlaşıb-uzlaşmamasını aşkarlayır.

İnsanoğlunun bütün canlılardan üstünlüyü onun sözü ilə meydana çıxır.

Söz insanın ən böyük mənəvi silahıdır. Sərin Gül Sadənin lirikasında sözün özünəməxsusluğu şairənin fikir dünyasının sublimasiyasını, estetik dəyərini açığa çıxarır.

Söz deyərəm, sözlərimi alana,
Söz deyərəm, qulağında qalana.
Söz deyərəm, utanaram, düz olmaz,
Söz deyərəm, şeytan məni qandırar.
Söz deyərəm, öz canımı yandırar,
Söz deyərəm, sağalmayan iz qalar.
Söz deyərəm, qayıtmağa üz qalar.
Söz deyərəm, Haqqa dönüb şər boğar.
("Söz deyərəm")

Sözün həyat işığı insanı ruhi-mənəvi cəhətdən həyata hazırlayır. Həyata əxlaqi-ruhani bağlantı insanın mənəvi düşüncə-

sinin həyati dalğalanmasını yaradır. Sağlam duyğuların hissi və intellektual acılımı üzvi şəkildə insanın həyat sorumluluğunu məqsədə çevirir.

Sərin Gül Sadənin poeziyası həyati poeziya kimi ruhun mənəvi sərhədlərini müəyyənləşdirir.

Ata-ana əllərini öpənin,
Yar başına tər gülləri səpinin,
Çətin gündə dada-hoya yetənin,
Tanrım versin ruzisini həmişə.

Qardaşının başına and içənin,
Yaxşıları yamanlardan seçənin,
Qohum-qonşu, oğul-uşaq sevənin,
İstərəm ki, əli çatsın bir işə.
("Tanrım versin ruzisini həmişə")

Söz dünyası insan düşüncəsinin həyati duyğusallığının həyati realitəsidir. Ruhi-mənəvi həyat alqısı daim insan hisslərinin coşqusunu tənzimləyir.

Sərin Gül Sadənin lirikasının həyati düşüncədəki emosional tərcihi duyğuların vəhdətini yaratmaqla, insan həyatının rəngarəngliyinə yol açır.

14 aprel 2025 -ci il

6-cı FƏSİL

ZAMANIN HƏYAT TABLOSU, FİKİR DUYĞUSALLIĞININ İCTİMAİ XARAKTERİ

Lirik şeirlər o zaman oxunaqlı olur ki, həm mövzu cəhətdən duyarlıdır, həm axıcı, həm də həyati duyğuları səmimi şəkildə əks etdirir. Poetikliklə həyatiliyin ortaq məxrəci şeirlərin müəyyən mənada həyatın zaman tablosunu ifadə edə bilməsidir.

Sərin Gül Sadənin lirikasının zaman tablosunda Vətən, yurd, el-obaya sevgi, insanlığın hər yönü ilə təbliği öz həyati yerini tutur.

Xalqı üçün çalışana,
Hər zəhmətə alışana,
Vətən sevən hər insana
Cani-dildən salam olsun!

Yıxılanı qaldırana,
Azad nəfəs aldırana,
Kim saxlayır ata-ana
Cani-dildən salam olsun!

("Salam olsun")

Vətən üçün, el üçün canını fəda edənlər həmişə xalqın gözündə ən ali məqama - şəhidlik məqamına yüksəliblər. Şəhidlik məqamı ilə yanaşı, öz sevgisi, xidməti ilə xalqın, elin hörmətini qazananlar da, insanlığın zirvəsində dayanırlar.

Həyatın dəyəri insanın yaradıcı düşüncəsinin nəticəsi ilə ölçülərək, öz həyati sublimativliyini biruzə verir.

Sərin Gül Sadənin lirikasında insan xarakterinin ən incə məqamları öz psixoloji həllinə qovuşur.

Almışıq eşq-ilhamı,
Demişik söz-kəlamı.
Çağırmışıq Mövlamı,
Vətən üçün, el üçün!

İslam olub dinimiz,
Həm ömrümüz-günümüz.
Qurban verrik canı biz,
Doğma Ana dil üçün!
("Biz")

Doğmalıq duyğusu insani duyğuların ən ülvisidir. İnsani düşüncənin kreativliyi ictimai həyat duyğularının dərin qatlarını

üzə çıxardır. İnsanlığın həyat fərqliliyi daima bəşəri düşüncənin rəngarəngliyini yaradır.

Dil insanın iç dünyasının hissi və fikri duyarlılığını sözlə ifadə etməsinin vasitəsidir. Dilin ünsiyyət araçı olması həyatın təbii üzünü göstərir, Sərin Gül Sadənin lirikasının həyat ayarını aşkara çıxarır.

Ünsiyyətin açarıdı,
Xalqımızın vüqarıdı.
Tanrımızın nübarıdı,
Doğma, əziz dilim mənim.

Qovuşdurur yarı yara,
Xitam verir, qəm-qubara.
Hər bir anda gəlir kara,
Zəngin, təmiz dilim mənim.
("Dilim mənim")

İnsan psixolojisi həmişə həyatın və zamanın təsirlərinə məruz qalır. İnsanlığın fenomenal həyat dəyərləri həmişə zamanın həyat üzünün ruhi həyat kriterlərinə uyum saxlayır. Lirik həyat duyumu ilə ictimai həyatın müsbət və mənfiliklərini yaradır.

Sərin Gül Sadənin lirikasının həyati psixolojisi insanlığın dəyərinin yüksəldilməsinə xidmət edir.

Gəl uyma heç dövlət-vara,
Sən olarsan bir avara.
Savab qazan, düzlük ara,
Yaxşı insan adlanarsan.

Yerdən qaldır yıxılanı,
Dərd əlindən sıxılanı.
Tənha qoyma yaxılanı,
Onda sən də şadlanarsan.

("Eylə dərdin davasını")

Həyati mənfiliklər daim insanın həyat düzənini zədələyir. Səbir və dözüm insanı psixoloji gərginlikdən qurtararaq, onun həyat aktevitəsinə müsbət təsir göstərir.

İnsanın həyat formulu onun şəxsiyyətini təsdiqləyir. Zaman çərçivəsində insanın həyati düşüncəsinin stabilləşməsi onun həyat təcrübəsini artırır.

Sərin Gül Sadənin lirikası insanlığın həyat dərslərini oxucuya təlqin edir.

Heyfin gəlsin əməyinə,
Yetmə namərd köməyinə.
Qiymət verməz heç nəyinə,
Axır səni peşman eylər.

Müxənnətdən olmaz paşa,
Geri çəkər, almaz başa.
Yol-ərkanı caşa-çaşa,
Göz yaşını giryan eylər.

Zalım səni başdan əkər,
Ətrafına çəkər çəpər.
Yollarına tikan əkər,
Həyatını zindan eylər.

("Eylər")

Qədir-qiymət bilmək insan əxlaqının həyati dəyərini anlamaqdan ibarətdir. İnsanın fərdiyyəti ilə onun ictimai mövqeyi arasındakı əlaqə həyati ümumiləşdirmənin ruhi psixoloji cizgilərini yaradır. Xarakterin həyati düzəni insani münasibətlərin qarşılıqlı dayanışması ilə müəyyənləşir.

Sərin Gül Sadənin lirikasında insanın özünə qarşı həyat duyarlılığı onun həyati duyumunu, hiss və həyəcanının alqışını üzə çıxardır.

Qanmayan söz qədrini,
Od-ocaq, köz qədrini.
Bilməyən öz qədrini,
Bilin ki, bizdən deyil.

Süzdürən göz-qaşını,
İtirən yaddaşını.
Ərə atan daşını,
Bilin ki, bizdən deyil.
("Bilin ki, bizdən deyil")

Öyüd-nəsihət insanın insana olan həyat duyarlılığına qapı açır. İnsanın həyati təcrübəsizliyi, onun həyat naşılığını yaradır. Təcrübəsiz insana yol göstərmək, onun işinə yaramaq, insanın vicdan duyğusunun yerində olduğunu göstərir, könül sevgisi ilə görülən işlərdə insanın həyati qazanımını üzə çıxardır.

Sərin Gül Sadənin lirikası öz ictimai məzmunu etibarı ilə həyatın sirli dünyasının həyat nəsnələrini oxucuya çatdırır.

Gümansızın gümanı ol,
Dərdlilərin dərmanı ol.
Halsızların hayanı ol,
Hamı desin bərəkallah.

Ümid kəsib, qırma inam,
Hey "sağ ol"dan qazan ənam.
Yaxşılıq et səhər-axşam,
Hamı desin bərəkallah.
("Hamı desin bərəkallah")

Həyati gözəllik insan ruhunu tam həyata bağlayır. İnsanın həyata baxışını dəyişdirən də, onun gözəllik duyğusunu qəlbində daşımasıdır. Ruhun təbiəti insanın həyat sevdasına daim yol göstərir. Ağılla ruhun birgəliyi həm həyati, həm bəşəri, həm də ictimai duyğuların impotensiyasını ələ alır.

Sərin Gül Sadənin lirikası gözəllik duyğusu ilə aşıb-daşan könül lirikası kimi olduqca səmimidir.

Sevda dolu yar baxışı,
Min dərdə dərman eyləyər.
Gəzdirib eşqin dağını,
Bağında mehman eyləyər.

Gözəllik eşqin barıdı,
Ömrün güllü baharıdı.
Yönü dağlara sarıdı,
Yayda qar-boran eyləyər.

("Eyləyər")

Sərin Gül Sadənin poeziyası həyati poeziya kimi daima insanın daxili aləminin həyata ola duyğusallığını da, onun həyat fəlsəfəsini də sadə bir könül ahəngi ilə açıb göstərir.

Şairənin hər bir şeirinin ana hədəfi insan könlünün həyata olan səmimi və duyğusal münasibətini anlatmaqdır.

15 aprel 2025-ci il

7-ci FƏSİL

XALQ ŞEİRİNƏ BAĞLILIQ, BAYATI SEVDASI, LAYLALAR VƏ OXŞAMALAR

Poeziya zəngin bir söz ümmanıdır. Poeziya ümmanında sözün qəvvası olmaq ancaq könül işidir.

Poeziya təsadüfi sevmir. Poeziya dünyası könül sevgisinin həyat üzünə sarılmağı, fikir və düşüncə aləminə gətirdiyi yeniliyi sevir.

Sərin Gül Sadənin poeziyası öz həyatiliyi, orijinallığı və könül ahəngi ilə zamanın nəfəsinə nəfəs qataraq, sözün həyat zirvəsinə çıxmağı əldə edib.

Şifahi poeziyanın ən populyar könül və həyat janrı, bilindiyi kimi, bayatı janrıdır. Bayatı janrı xalq şeirinin tarixən sınaqdan çıxmış ən mükəmməl klassik janrıdır. Bayatı janrının klassikası öz estetikliyi və qəlbəyatımlılığı ilə heç bir ədəbi janrla müqayisə olunması belə mümkün deyil.

Bayatı janrının həyat və könül janrı kimi populyarlığı xalqın həyat və məişətinə doğmalığı ilə seçilir.

Zamanın həyat gərdişi, xalq həyatının etkiləyici təsiri, fərdi həyat yaşamının kövrəldici üzü ilə meydana gələn çalxantılar insanın könül dünyasının müəyyən dəyişiminə səbəb olur.

İnsan öz həyatının həyat izlənimini sözə çevirərək qəlb duyğularını bəyan edir.

Sərin Gül Sadənin xalq şeirinin bayatı janrına könül verməsi şairənin anadan olduğu ailənin - atası Ömər müəllimin və anası Xanım ananın sinələrinin sözlü- bayatılı olması ilə birbaşa bağlıdır. Sərin Gül Sadənin böyük qardaşı şair İladi Ömərоğlunun "Bir ocağın şöləsi" (Bakı-2012, 192 səh.) kitabında şairənin atası Orucov Ömər Nəbi oğıundan yaddaqalan qırx iki bayatı verilmişdir.

Ömər Nəbi oğlunun bayatıları xalq şerinin ən gözəl nümunəsi kimi könüllərə öz töhfəsini verməkdədir.

Əzizinəm, mən güləm,
Bir saralmış sünbüləm.
Neyləmişəm fələyə,
Aman vermir, mən güləm.

Əzizinəm qaraldı,
Yenə göylər qaraldı.
Yayın günü üstümü,
Boran aldı, qar aldı.

(İladi Ömərоğli, ”Bir ocağım şöləsi”, Bakı-2012, səh. 35)

Sərin Gül Sadənin 90-a yaxın yaşı olan (indi 104 yaşı var – red.) Xanım adlı sevgili anasına ondan artıq şeir həsr etmişdir. Şairənin bu şeirlərində Xanım ananın əsl ana portreti yaradılmışdır.

Yetişibdi doxsan yaşa,
Gördüyü iş gəlir xoşa.
Bir örnəkdi başdan-başa,
Xanım ana, canım ana!

Həmdəm olub ona dağlar,
Neçə şair övladı var.
Kəndə gedir hər yaz-bahar,
Xanım ana, canım Ana!
(“Xanım Ana”)

Sözün xəzinəsi xalq düşüncəsini, onun həyatının keşməkeşliyini, arzu və istəklərinin qayəsini ifadə edən xəzinədir.

Xəzinənin dəyəri onun içərisindəki qiymətli varidatdadır. Xalq şeiri xalqın əsl mənəvi sərvətidir.

Şifahi xalq şeirinin ən populyar, dinamik, qədim, geniş yayılımış könül və həyat janrı bayatıdır.

Bayatı janrının populyarlığının səbəbi onun yığcamlığı, dinamikliyinin səbəbi isə təsirli və ahəngli olmasındadır .

Bayatı xalq şeirinin ana janrı kimi laylalardan sonra ikinci yeri tutur. Könül duyğularının ən ahənglı və sublimatik janrı kimi, bayatı özünün yığcamlığı, hikməti və duyğusallığı ilə önə çıxır.

Şifahi xalq şeirinin populyarlığının geniş mənada rəğbətlə qarşılanması, şairlərin də könül duyğularını daha mənalı və ürəyəyatımlı istifadə etməsinə səbəb olmasından dolayı, bayatının yazılı poeziyamızda da əsas janr kimi istifadə olunmasına marağı artırmışdır.

Bayatını yazılı ədəbiyyatda əsas janr kimi ilk dəfə geniş şəkildə istifadə edən, şifahi və yazılı şeirin müştərək janrına çevirən XVII əsrdə yazıb-yaratmış, qəbri Laçının Güləbird kəndində olan Sarı Aşıq (1605-1645) olmuşdur. Sonrakı dövrlərdə

yazılı mənbələrdə bir çox şairlərin yaradıcılığında bayatı nümunələrinə rast gəlinsə də, Sarı Aşıq kimi yazılı olaraq davam etdirən söz adamlarına az rast gəlinir.

Sərin Gül Sadə yaradıcılığında bayatı janrına xüsusi yer verdiyindən şeirimizdə Sarı Aşıqdan sonra yenidən bayatı ustası kimi yazılı poeziyamızda unudulmaqda olan bayatı janrının yenidən populyarlaşmasına təkan verilmişdir.

Sərin Gül Sadənin irili-xırdalı üç bayatılar toplanmış kitabı indiyə qədər işıq üzü görmüşdür. Şairənin birinci bayatı kitabı – "Bayati çələngi" ("Elm və təhsil" nəşriyyatı, Bakı-2023, 151 səh.) adlanır. Onun bu kitabında 358 bayatı, 146 cinaslı bayatı, 38 laylalar və oxşamalar yer almışdır.

Sərin Gül Sadənin 2023-cü ildə yenə iki miniatür kitabı işıq üzü görüb:

1."Bayatılar", 177 bayatı, ("Elm və təhsil", Bakı-2023, 91 səh.)

2."Cinaslı bayatılar", 138 bayatı ("Elm və təhsil", Bakı-2023, 71 səh.)

Bu üç kitabda toplam olaraq 819 bayatı, 38 laylalar və oxşamalar yer almışdır.

Başlıca cəhət ondan ibarətdir ki, Sərin Gül Sadənin bayatılara, layla və oxşamala-

ra yaradıcılığında əsas yer ayırması şairəni ədəbi üslubunu, yaradıcılıq məfkurəsinin orijinallığını və yeni sənət baxışını ortaya qoyur.

Aşıq poeziyasına, xalq şeirinin populyar janrı olan bayatı janrına könül verməsi, şairənin iç dünyasının dinamitlərini geniş mənada hərəkətə gətirərək, onun söz dünyasının həyati-fəlsəfi, həyati-psixoloji, həyati-ruhi yaradıcılıq tendensiyasının reallığını açıqlayır.

Sərin Gül Sadənin poeziya dünyası özünün ideya məfkurəsi, sənətkarlığı, mövzu seçimi etibarı ilə olduqca geniş ədəbi-estetik əhatə dairəsinə sahibdir.

Şairənin bayaılarının mövzu dairəsini şərti olaraq bir neçə yerə ayırmaq olar:

1. Vətən və qürbət bayatıları,
2. Sevgi və həsrət bayatıları,
3. Yaradana aid bayatılar,
4. Təbii gözəlliklərə aid bayatılar,
5. Dostluq və düşmənə nifrət bayatıları.

Vətən, yurd yeri insanın anadan olduğu və yaşadığı məkan kimi doğmalılq hissi aşılayır insana. Hər bir insana öz yurd yeri nə qədər doğmadısa, ona qarşı sevgi-

məhəbbət duyğusu da aşırı dərəcədə təbbi olaraq bağlılığın yaranmasına vəsilədir.

Sərin Gül Sadənin Vətənə aid bayatılarında insanın ruhunun ülvi hissləri önə çıxır.

Ya Əli,
Ya Məhəmməd, ya Əli.
Vətəni sevməyənlər,
Ya sərsəmdi, ya dəli.

Vətəndədi,
Bilirəm, Vətən nədi.
Özüm qürbət diyarda,
Xəyalım Vətəndədi.

Borçalı qədim diyar,
Tarixlərdə adı var.
Ondan uzaq düşəli,
Mənim könlüm qan ağıar.

Sevgi insan həyatının, onun mənəvi-əxlaqi yaşamının ruhi duyarlılığının özülüdür. İnsanın ünsiyyətinin yaranması, onun könül sevgisinin ilişkisi ilə meydana gəlir. Könül sevgisinin həyati psixolojisi onun həyati sosiolojisinin yaranmasına səbəb olur.

Sərin Gül Sadənin bayatılarının böyük əksəriyyəti ünsiyyət dairəsində sevginin könül və həyat üzünün bir- birindən asılılığı özünün həyat hikmətini göstərir.

Pay verdi,
Yarım qəmi pay verdi.
Mən yalvardım fələyə,
O, dərdimə tay verdi.

Mən aşiqəm nədəndi?
Telə düşən nə dəndi?
Xəyal dağda-aranda,
Məndə quru bədəndi.

Sərin Gül oda yandı,
Qohuma, yada yandı.
Özü düşdü alova,
Can getdi bada, yandı.

İnsanın özünüdərki onun mənəvi-əxlaqi ruh sağlığının vicdani düşüncəyə sahibliyini üzə çıxardır. Həyati realitənin metafizik duyğuları alqılaması, insanın dünyagörüşünün maddi və mənəvi ideyalılığına münasibəti aşkarlayır. Dünyəviliyin həyati məfkurəyə yönəlməsi insanın metafizik düşüncəyə yönəlməsinə vəsilə olur.

Sərin Gül Sadənin bayatıları, hikmət və zəka pəncərəsindən Yaradana olan düşüncənin alqoritmini ortaya qoyur.

Tanrımlız, bu əyandı,
Can verən, can alandı.
Lüt gətirib dünyaya,
Lüt də yola salandı.

Ay Tanrım, kərəm eylə,
Mənə az sitəm eylə.
Əsliyə döndər məni,
Yarımı Kərəm eylə.

Yeri-göyü yaradan,
Qoru bizi bəladan.
Gözün yollarda qalsın,
Qəlb incidib əzən can.

Təbət insanın yurd yeridir. İnsan təbiətin içində özünə yurd-yuva quraraq, özünə tabe edir təbiətin nemətlərini. Təbii gözəlliklərin dərki, insanın təbiətə olan münasibətini müsbət mənada dəyişərək, ona sevməyi, gözəllikləri duymağı öyrədir.

İnsan təbiətin içində özünün xoşbəxtliyini tapır.

Sərin Gül Sadənin lirikası təbəti insana sevdirməklə, ona qarşı olan məhəbbət duyğularını artırır.

Duman sürünər gedər,
Dağa bürünər gedər.
Ömür yuxuya bənzər,
Bir an görünər gedər.

Dağda su sərin olar,
Dərələr dərin olar.
Ana, dilin dinc saxla,
Narahat yerin olar.

Göydə uçan durnalar,
Sizdən bir xahişim var.
Vətən səmtə uçsanız,
Məndən deyin salamlar.

Əxlaqi-mənəvi dəyərlərin içərisində dostluq ən mühüm insani münasibətlərin yaranmasına səbəb olur. Dostluğun həyati dəyəri həmişə insanlığın həyati-ruhi açılımına vəsilədir. Dosta olan sevgi düşmənə qarşı mübarizliyi yaradır.

Sərin Gül Sadənin bayatılarının ən aparıcı yönü dostluğa önəm verilməsi, düş-

mənə qarşı barışmazlığın həyat mövqeyinə olan mübarizlikdir.

Can deyilməz, ay ana,
Hər yerindən durana.
Rəhmət iş düzəldənə,
Lənət vurub-qırana.

Hər zaman de, Əli, sən,
Mərdə söylə bəli, sən.
Çalış dosta-tanışa,
Uzat kömək əli sən.

İnsanı sınar,
İnsan, insanı sınar.
Dosta yalan söyləsən,
Onun gümanı sınar.

Sərin Gül Sadənin bayatı dünyası onun könül dünyasının zirvəsini təşkil edir. Bayatılarla yanaşı, layla və oxşamalara da yaradıcı münasibət onun könül dünyasının irfani zənginliyini, ruhi-mənəvi duyarlılığını bir daha göstərir.

Dünyada türk xalqlarından başqa elə bir xalq yoxdur ki, öz çağalarını sözlə, nəğmə ilə oxşamış olsun.

Layla və ninnilər xalqımızın şifahi xalq şeirinin ən qədim və eyni zamanda həyatı boyu daim onunla yaşayan növüdür.

Layların tarixi insanlığın doğum tarixi ilə bir doğulur. Yenilik ondan ibarətdir ki, hər bir Ananın övladına olan sevgisindən doğulan laylaların özünəxas musiqililiyi də var.

Sərin Gül Sadənin laylaları gənc anaların həyat yoluna sanki çıraq yandırır.

Layla, süsən-sünbülüm,
Layla, bağçada gülüm.
Böyü, atım qəm yükün,
Mən də sevinib-gülüm.

Layla, cahu-cəlalım,
Layla, dövlətim-varım.
Eşidib xoş sədanı,
Gülsün baxtım-iqbalım.

Sərin Gül Sadənin laylaları öz könül coşqusu və həyati səmimiyyəti ilə xalq laylalarının tam bənzəri kimi olduqca duyğusal və doğmadır insana.

Şairənin ana ruhu öz klassik nəğməkarlığı, ülviyyəti ilə insanın ruhunu ələ ala-

raq, onda çağaya qarşı tam məhəbbət hissləri oyadır.

Layla, ağ göyərçinim,
Layla, gözəl-göyçəyim.
Böyü, ad al, xalı sal,
Qoy çırtdasın çiçəyim.

Layla, igid, ər balam,
Layla, qoçaq-nər balam.
Adlı-sanlı insan ol,
Sən göstər hünər, balam.

Laylalar ilkin çağa dövründə körpələrin qulağına oxunan nəğmələrdir. Çağaların aybaay böyüməsi artıq onların ətə-qana dolması ilə bəllənərək, yeni ruh halını yaradır.

Hər bir uşağın çağalıqdan çıxması, böyüməsi onun ətrafında dolaşan insanların diqqətini cəlb edərək ruh halının dəyişimini yaradır.

Oxşama böyüyən çağanın ruhuna, ona olan nəzər-diqqətin cəlbinə səbəb olaraq yaranır.

Qəndim, şəkərim, balım,
Sənsən dövlətim-varım.

Gözmü sənə dikmişəm,
Böyü, fəxrim-vüqarım.

Əziz balam Türkanım,
Sənə qurban bu canım.
Sənsən arzu-ilhamım,
Dağım, düzüm, aranım.

Qızım sevir qucağı,
Alatoran durmağı.
Allaha yalvarmıºam,
Öyrənsin oturmağı.

İsmayıl babam adı,
Sevibdi qohum-yadı.
Arzum budu Allahdan,
Sönməsin, ocaq-odu.

Poeziyanın ruh halı insanın həyat və könül halının fikir axınını tənzimləməsidir. Şüuraltı düşüncənin həyat alqısı daim insanın hiss və duyğularının əhatəliliyini, həyat və məişətinin qayğılarını izah edir.

Sərin Gül Sadənin poeziyasının xalq şeirinin ruhu ilə uzlaşması şairənin lirikasının ruhi cəhətdən ölümsüzlüyünü yaradır.

18 aprel 2025-ci il

8-ci FƏSİL

XALQ ŞEİRİNƏ MÜNASİBƏTDƏ ƏNƏNƏVİLİK VƏ SƏNƏTKARLIQ XÜSUSİYYƏTLƏRİ

Poeziya söz sənəti kimi zamanın həyat tablosunu yaradıcı insanların sözə olan könül sevgisinin ənənəvilik prinsipi ilə gələcəyə daşımaqdadır.

Poeziyanın xalq şeiri ənənəsi aşıq poeziyasının nümunəsində öz yolunu zəif də olsa, davam etdirməkdədir.

Müasirliklə klassik xalq şeiri ənənəsi çağdaş poeziyamızda iç-içə yaşamaqdadır. Ənənəvi heca üslubu ana şeir üslubu kimi fikir və düşüncə axınını davam etdirməklə, zamanın, insanın həyat və məişətinin tablosunu yaratmadadır.

Novatorluq hər bir söz adamının sözsənət yolunun işıqlı düzənə qovuşmasındadır. Sərin Gül Sadənin poeziyasının ənənəviliyi poetik sənət yolunun həyatiliyini saxlamaqdadır.

Şairənin lirikasının əsas sənət yolu xalq şeirinə dərindən bağlılığı ilə müşahidə olunur.

Qoşma, bayatı, gəraylı kimi xalq şeirinin janrlarına yeni yaradıcı münasibət Sərin Gül Sadənin lirikasında qırmızı xətt kimi keçir.

Yandı canım, a bimürvət,
Lal oturma, danış, söylət.
Öldürəcək məni həsrət,
Salma haldan-hala məni.

Sevəntək sinə gərmədim,
Bircə çiçəksə dərmədim.
Gözlədim, könül vermədim,
Unutdun az qala məni.

Sən Sadənin ürəyisən,
Hər arzusu-diləyisən.
Dar günündə gərəyisən,
Salma yoldan-yola məni.

("Məni")

Klassik poeziya nümunəsi rübaiyə yaradıcı münasibət Sərin Gül Sadənin poeziyasının rəngarəngliyini artırır. Onun "Könlümün barı" kitabında verilmiş 60-a yaxın rübailərinin söz-sənət üslubu heç də klassik üslubdan fərqlənmir.

Ver yeyim, ört yatım deyəndən olma,
Qisa, yarıçılpaq geyəndən olma.
Səndən bir xahişim, bir istəyim var,
Düzəlmiş işləri əyəndən olma.

Bu sözlərdə çox hikmət var, deyirlər,
Gözəl üzdən tez doyurlar, deyirlər.
Ağıllı baş,dərin kəlam deyirlər,
Gözəl Sözdü insana yar, deyərlər.

Hikmət və aforizmlər poeziyanın ən mühüm janr gözəlliyi kimi "Təkbeyt"lərlə yaranır. Kəlam anlayışı təkbeytlilk kimi düşüncə anlayışını ifadə edir.

Sərin Gül Sadənin 53-ə yaxın "Təkbeyt"ləri, "Könlümün barı"("Elm və təhsil" nəşriyyatı, Bakı-2022, səh. 270) kitabında verilmişdir.

Uyma yamanlara, cəhənnəm də var,
Yaxşılar içində çalış, tut qərar

Dünya gəldi -gedər, fanidir, fani,
Kədəri bol-boldur, sevinci ani.

Qadın var ki, sığal çəkər pışiyə,
Ancaq baxmaz heç ürəkdən kişiyə.

Ümidini bağla böyük Allaha,
Tamaha bağlanıb batma günaha.

Var-dövlət tutubsa kimin gözünü,
Vecə almaz ağsaqqalın sözünü.

Sərin Gül Sadə hansı şeir növündə yazırsa-yazsın, məna və məzmuna, sözün məntiq və ritmik ahənginə ustalıqla fikir verir.

Şairənin poeziyası sənətkarlıq cəhətdən olduqca mükəmməl həyat-ruhi söz üslubuna sadiqliyi ilə seçilir.

Sərin Gül Sadənin "Bayatılar" kitabında 146, "Cinaslı bayatılar" kitabında 138 bayatısı öz məzmun və poetikliyi ilə könül oxşayır. Şairənin cinaslı bayatıları öz məna və sözün daxili mənası gözəlliyi ilə oxucunu riqqətə gətirir.

Quran var,
Yaradan var, quran var.
İslam nurdan yaranıb,
Əlimizdə "Quran" var.

Əli mindi,
"Düldül"ü Əli mindi.

Siz məndən çox uzaqda,
Yetişmir əlim indi.

Yara bax,
Sağalmaz bu yara, bax.
Mənim anam can verir,
Deyib-gülən yara bax.

Aşıq, tər sinə gördüm,
Basmış tər sinə gördüm.
"Mən düzəm", - deyənləri,
Hər vaxt tərsinə gördüm.
("Bayatı çələngi", Bakı-2021, səh. 102)

Sərin Gül Sadənin poeziyası öz bütövlüyü, klassikası sözün poetik duyumu etibarı ilə çağdaş şeirimizin söz- sənət yoluna işıq salmaqdadır. Ruhun həyat və məişətindən gələn narahatlığı ilə sənət yoluna çıxan şairənin lirikası zamanın söz-sənət incisi kimi öz layiqli mövqeyini qazanmaqda tam haqlıdır.

18 aprel 2025-ci il

NƏTİCƏ

Bir həyat və könül şairəsinin söz dünyasını nəzərdən keçirib, sözdən tikdiyi "könül sarayı"na daxil olub onu incələmək olduqca məsuliyyətli və diqqətlilik tələb edir.

Sərin Gül Sadənin söz sənətinə gəlişi heç də təsadüfi deyildir. Əvvəla, şairənin anadan olduğu ailə söz süfrəsinə sahib ziyalı bir ailə idi. Atası Orucov Ömər Nəbi oğlu (1918-1998) dövrünün tanınmış ziyalılarından biri olmaqla, sözə-sənətə bağlı bir müəllim olub. Ömrünü doğulduğu, yaşadığı Borçalı elinin Başkeçid rayonunun Qarakilsə (Dəmirçi Həsənli) elinin təhsillənməsinə sərf etmiş, gözəl bayatıları ilə yadda qalmışdır.

Anası Xanım ana da sinəsi nəğməli bir zəhmət adamıdır.

Şairənin böyük qardaşı İladi Ömərоğlu (1948) müqtədir şair, yeni əsrin söz sahiblərindən biri kimi tanınır.

Şairənin böyük bacısı Abdullayeva Səadət Ömər qızı - Səadət Buta ondan artıq şeir kitabının müəllifidir.

Qardaşlarından biri - Orucov Vidadi Ömər oğlu da şair təbiətli fizika-riyaziyyat üzrə fəlsəfə doktorudur.

Ailə şəcərəsini izlədikcə, Sərin Gül Sadənin mənsub olduğu ailənin hər birinin sinəsinin sözlə dolu olduğunu görürük.

Bu estafet davamlı olaraq yenilənməkdədir:

- Elturan Elxan oğlu Orucov - İladi Ömərоğlunun nəvəsi,
- Məmməd Abdullayev - Səadət Butanın oğlu,
- Teymur İsmayılov - Sərin Gülün oğlu,
- Hənifə Şəbnəm - Sərin Gül Sadənin qardaşı Nəbi Orucovun həyat yoldaşı,
- Nəbi Orucov (1954) Sərin Gül Sadənin qardaşı,
- Orucova Sevil Həkim - Sərin Gül Sadənin qardaşı, professor Vidadi Ömər oğlu Orucovun qızı kimi gənclər də sözə-sənətə biganə deyillər.

Söz sarayı ən ali sənət Sarayıdır.

Sərin Gül Sadənin böyük qardaşı şair İladi Ömərоğlunun "Bir ocağın şöləsi" ki-

tabında Orucovlar ailəsinin söz-sənət dünyası öz əksini tapmışdır.

Orucovlar ailəsinin söz işığı sönməz sənət işığıdır. Bu ailənin söz-sənət sarayının işığının şöləsi ötən əsrdən başlayaraq, bu günümüzdə də davam edərək, gələcəyə nur saçır.

İladi Ömərоğlunun Sərin Gül Sadəyə ithaf etdiyi "Mənim bacım Səringülüm" şeiri Sərin Gül Sadəyə verilmiş ən böyük dəyərdir.

MƏNİM BACIM SƏRİNGÜLÜM

Mövlam verib bizi bacı,
Bacısızlar çəkər acı.
Bacıların qızıl tacı,
Mənim bacım Səringüldü.

O, bilirmiş əhvalımı,
Sevincimi, məlalımı.
Soruşan mənim halımı,
Mənim bacım Səringüldü.

And içərmiş o, başıma,
Can verərmiş göz yaşıma.
Bənzəyən dost- sirdaşıma,
Mənim bacım Səringüldü.

Əgər gəzsə İran-Turan,
Unutmazmış məni bir an.
Məni sevən, məni qanan,
Mənim bacım Səringüldü.

Kövrələndə könlüm alan,
Qürbət eldə yada salan.
İladiyə həmdəm olan,
Mənim bacım Səringüldü.

(*İladi Ömərоğlu, "Bir ocağın şöləsi", "Elm və təhsil", Bakı-2012, səh. 64)*

Söz dünyası mənəviyyat dünyasıdır!
Söz dünyası ruh dünyasıdır!
Söz dünyası könül dünyasıdır!

Mənəviyyat dünyasının adamları müdrikliyin daşıyıcısıdır.

Ruh dünyasının adamları Yaradana sevgisi, inamı olan insanlardır.

Könül dünyasının bireyləri qəlbi insanlığın təbliği və ülviyyəti ilə yaşayan sözsənət nümayəndələridir.

Şairə Sərin Gül Sadənin ruh və könül dünyası olan poeziyası öz dəyəri, gözəlliyi və kamilliyi ilə seçilir.

Mən inanıram ki, Sərin Gül Sadənin sözünün işığı zamana yayılacaq və oxucularının qəlbini oxşayaraq, onların ruhunu özündə gələcəyə daşıyacaqdır.

18 aprel 2025-ci il

***

Bayatı şerimizin sənət-söz dünyasına açılan qapısıdır.

Bayatı ruhun emosional könül açılımıdır.

Bayatı qəlbin ruhi dərinliyindəki sevginin gücünü nümayiş etdirən fikirlərin səslənişidir.

Sənət-söz dünyasının azad ruhunun daşıyıcısıdır bayatı.

Ruhun ağrı-acısını bəlli edən düşüncənin hüsnü-zənnidir bayatı.

Sevginin həyat saflığının əbədi dayanıqlığını aşkarlayan alqısıdır bayatı.

Çağdaş zamanın həyat karvanında öz ədəbi düşüncədəki yeri, novatorluğu və söz-sənət sehri ilə könüllərə sevgi daşıyan, bayatı şairəsi Sərin Gül Sadənin lirikasının həyati özduyumu insanlığın sədasıdır.

XVII əsrdə yaşamış aşıq-şair kimi orta əsr şeirimizdə bayatı şairimiz kimi tanınan Sarı Aşıqdan sonra bayatı xalq şeir növünə qol-qanad verən şairə Sərin Gül Sadədir.

Minə yaxın bayatısı işıq üzü görən Sərin Gül Sadənin bayatıları üç ayrıca "Bayatılar" kitabında toplanmışdır

Qeydsiz-şərtsiz olaraq, söz sənətinin gözəlliyini əks etdirən bu bayatılarda insa-

nın mənəvi aləminin həyati tablosu öz əksini tapmışdır.

Sərin Gül Sadənin bayatılarının mövzusunu çeşidlənməsi olduqca çətindir.

Şərti olaraq isə şairənin bayatılarının mövzu dairəsini bir neçə yerə ayırmaq olar.

Şairənin bayatlarının sematikasında öncül yerlərindən başlıcası həyati fəlsəfiliklə müşahidə olunan Yaradana tapınmaqdır.

Tanrının min sirri var,
İnsanın hər cür var.
Yerin üstündə ölü,
Yer altında diri var.

Dağdı Tanrı müjdəsi,
Dağdı elin həvəsi.
Dağdı bu Səringülün,
Vuran qəlbi, nəfəsi.

("Bayatılar", Bakı-2023, səh. 5, 7)

Ruhun həyat axtarışı insanı düşünməyə vadar edir .

Həyati hikmətin alqısı, insanın mənəvi dünyasının zənginliyini ehtiva edir.

Dini ehkamlara sevgi ilə yanaşmaq, insanı düşünməyə vadar edir.

Sərin Gül Sadənin bayatılarında dini düşüncənin parapisxoloji təyini ön yerdədir.

Kitabımız "Quran"dı,
Tanrımızdan nişandı.
Türkün şanlı dövləti,
Bu gün-sabah Turandı.

Əvəzi yox "Quran"ın,
Bəzəyidir cahanın.
Yerə dəysin tək dizi,
Namazda müsəlmanın.
("Bayatılar", Bakı-2023, səh. 8, 10)

Vətən sevgisi yurda olan məhəbbətin ülviyyətini könüllərə daşıyır.

Həyati duyğuların özləmi Vətənə olan sevginin gücünü göstərir.

Vətən sevgisi qürbətlə qarşılaşanda insan hisslərinin həyati dolğunluğu özünə qayıdışı tətikləyir.

Sərin Gül Sadənin bayatılarının ana qaymağından biri Vətən sevgisidir...

Ölkəmiz abad olsun,
Dostlar baxıb şad olsun.
Çiçəklənsin Vətənim,
Düşmən yurdu bad olsun!

Qürbət ellər yamandı,
Onu öymə, amandı.
Qürbətdə, burun suyu,
Vallah, gözə damandı.
(Bayatılar", Bakı-2023, səh. 8, 10)

Həyatın əlifbası insanın mənəvi aləmini üzə çıxardır.

Qəlb sevdasının saflığında insan hisslərinin həyat ruhunun sağlamlığı özünü bəlli edir.

Düşüncənin psixoloji halı insanın könül sevgisinin həyat hədəfini açıqlayır.

Sərin Gül Sadənin bayatılarının incə tərəflərindən biri insanın yaşam duyğularının ifadəsidir.

Adam var, hey tər tökər,
Araya güllər tökər,
Adam var, dost başına
Ələyib küllər tökər.

Aşıq sirri söylədi,
Düşdüm geri söylədi.
Fələk pislik etdisə,
Sonra yeri söylədi.
("Bayatılar", Bakı-2023, səh. 11)

Doğmalıq insanın bir-biri ilə könül həmdəmi olmağına vəsilədir.

Bəzən həyatda insanı həyat sınaqlarına çəkən də insanın öz doğmaları olur.

Həyatın kəşfi insani münasibətlərin dərin təması ilə mümkündür.

Sərin Gül Sadənin bayatılarında insanın özünüdərkinin həyati məna kəsbi özünü təsdiqləyir..

Çoxu lap ağ eylədi,
Sadəyə lağ eylədi.
Qohumun bir neçəsi,
Dərdimi dağ eylədi.

Səni etsə bir dəli,
Müti, gözükölgəli.
Dönər şirə-pələngə,
Hər vaxt sənə xox gəli!
("Bayatılar" Bakı-2023, səh 12)

Sözə verilən dəyər insanın mənəviyyatına verilən dəyərdir.

Sözün inanılası hikmətini üzə çıxardan onun həyati mənasının elmiliyidir.

Ruhi həyat coşqusu sözün həyat fəzilətini aydına çıxaran vasitədir.

Sərin Gül Sadənin bayatılarında insan qəlbinin ruhi-iradi həyat istəyini doğrulayan sözün həyat varlığıdır.

Sözü sözə vuran var,
Sözə qarşı duran var.
Sözlə, evləri yıxan,
Sözdən qala quran var.

Çox sözün hikməti var,
Abırı-isməti var.
İnsan kimi sözün də,
Qədəri-qisməti var.
("Bayatılar", Bakı-2023, səh. 26, 27)

Ömür sürəci insanın həyat yolçuluğunun keşməkəşli gedişidir.

Həyati yaşamın hikməti insanın mənəvi-əxlaqi dəyanətini özündə barındırır.

Həyati xatirənin diriliyi daim insanlığın yeniləşməsinə götürür insanı.

Sərin Gül Sadənin bayatıları insanın mənəvi dünyasının ruhi-psixoloji zənginliyi ilə seçilir.

Ömür qəmdi-kədərdi,
Kədər çəkmək hədərdi.
Pis gün dumana bənzər,
Bir an gəlib-gedərdi.

Borc almışıq biz ömrü,
Nə incit, nə üz ömrü.
Min insanda yoxdu bil,
Bir hikmətli söz ömrü.
("Bayatılar", Bakı-2023, səh. 57, 29)

Sərin Gül Sadənin bayatıları insan ruhunun həyati qayğılarının könül və həyat dayanışmasının ritorikası ilə könüllərə həyat sevdasını aşılayır.

Qəlbin həyat nuru ilə boyanan sevginin həyat saflığını hər bayatının həyat məntiqi ilə uzlaşmasında tapır oxucu.

Şairənin poeziyasının ictimai xarakteri bayatılarda subliminal həyat enerjisi ilə üzə çıxır.

Hər bir bayatı sanki bir həyat hekayəsi kimi ictimai düşüncənin psixoloji halını duyurur insana.

Sərin Gül Sadənin bayatıları Sarı Aşıq sənətinin, onun ədəbi məktəbinin yeni versiyasını ortaya qoyur.

Var yalanı, doğrusu,
Sözün də söz oğrusu.
Axirətdə olur bil,
Sözün sözlə sorğusu.

Bəd sözün közü qalar,
Ürəkdə izi qalar.
Dünyadan köçər insan,
Söhbəti-sözü qalar.
(*"Bayatılar ", Bakı-2023, səh. 28)*

Bayatıların həyat obrazı ilə sənətkarlığın üst-üstə düşməsi poetik eyforiya üçün deyil, zamanın həyat dərdlərinin metaforasını özündə inşa etməsi üçün şərtdir.

Sərin Gül Sadənin bayatı dünyası özünün idraki-ruhi düşüncədəki üstünlüyü və təkrarsızlığı ilə zamanın həyat məntiqini daim özündə yaşadacağına əminəm.

3 may 2025-ci il

NƏTİCƏYƏ SÖZ ARDI

Sözün həyat dili...

Həyat əlifbasının gözü ilə...

Şairə Sərin Gül Sadənin dünyaya baxışı hərflərin adı ilə...

Azərbaycan əlifbası:

A hərfi ilə başlayır,

Z -ilə qurtarır...

Ustadım Dədəm Qorqud masallı İladi Ömərоğluna ithaf edirəm bu həyat düşüncələrimi...

A* - Allah sevgisi nə deməkdir?

- insanın vicdanı, duyumu!

B* - Böyüklüyü nədə görürsünüz?

- Böyüklüyü dünyagörüşündə və savadda.

C* - Cah-cəlallı yaşayışa münasibətiniz?

- Vaxtı ilə cah-cəlala marağım olub. İndi isə yox, tamamilə cal-cəlaldan uzaq dururam.

Ç * - Çətinliklər insanı nəyə vadar edir?

- İnsana daş dəydicə, çətinliklər onu dağa döndərir. Mən xoşbəxt bir qadınam ki, çox çətinliklər - həyatın hər üzünü görmüşəm.

D* - Din insana nə verir?

- Mən dinlərə fərq qoymuram. Yaxşı və pisini fərqləndirirəm. Yaxşıları sevirəm.

E* - Evlilik insan üçün nəyi ifadə edir?

- Bütöv bir ailəni, çox şeyi, həyatın mənası oradan başlayır.

İnsan nə öyrənirsə, ata-anadan öyrənir.

Mənim Xanım anam Bəxtiyar ağanın qızıdır. Nə öyrənmişəm, ondan öyrənmişəm.

Ə* - "Əşi" sözünə necə anlam verirsən?

- Səhlənkarlıq! Adamda söz bir olar: - hə, ya da yox!

F* - Faydanı necə anlayırsınız, özünüz üçün?

- Faydanı gözəllikdə görürəm. Yıxılanın qolundan tutmaq, ehtiyacı olanın ehtiyacını ödəmək.

G* - Gözəlliyə ləkə salmaq, ona laqeyd olmaq nəyə bərabərdir?

- İnsan öldürmək kimi bir şeydir! Gözəlliyi görməyən gözlər kordur, duymayan isə qara daşdır!

Ğ* - uşaq qığıltısına münasibətiniz?

- Mənim aləmimdə yeni bir aləm deməkdir, dünyanın ən gözəl səsidir uşaq qığıltısı.

H* - Hakim olmaq istərdinizmi - Söz hakimi?

- Kim istəməz ki, söz hakimi olmasıın? Amma gərək Haqqı deyə!

X* - Xəstəliyin mənəvisi nədir?

- Ruh xəstəliyi xəstəliyin mənəvisidir. Bir də insanda paxıllıq.

İ* - İlanın ağı, qarası var, bəs insanın?

- İnsanların da yaxşı və pis niyyətlisi var! Pis niyyətlisi nə eləsən çalmağa gözləyir səni. Gərək qabağından qaçmayasan, qaçanda çalır səni! İlan ilandır, insan ilandan da təhlükəlidir. İlanın anlayışı yoxdur, onun peşəsi çalmaqdır. İnsan isə anlaya-anlaya "çalır"!

I* - Arı kimi bal şirəsi çəkən insanın dadı nədədir?

- İnsanın, insanlığın dadı anlaqlığında, müdrikliyində, xeyirxahlığında, az danışıb, çox dinləməyindədir!

J* - "Jalə" şeh deməkdirsə, insanın hansı göz yaşına şeh demək olar?

- İnsanın qəfil görüşündə gözlənilməyən an sevincdən yaranan göz yaşına şeh demək olar!

K* - kəmsavadla, kəmhövsələ arasındakı fərq?

- Böyük qalmaqal. Qanana da rəhmət, qanmayana da. Dad yarımçıq əlindən!

Q* - əsl qadın nə deməkdir?

- Ərinin dilini, böyüyün-kiçiyin yerini bilən xanımlıq-xatınlıq qanla-genlə gəlir. Qızı gərək, əsilli-nəcabətli yerdən alasan.

L* - ləzizliyi nədə görürsünüz?

- Dünyada görürəm. Dünyada haraya baxsan gözəldir. Dünya kimindir? Dünya onu sevənlərindir.

İnsanı yaşadan inamdır.

Allahını sev, gözəl dünyanı sev.

M* - mənfəət deyəndə nəyi nəzərdə tutursunuz?

- İnsanlar var mənfəət güdür, bu rəzillikdir. Bir də var, alim yanında söz xəzinədarından bilik öyrənirsən. Öyrənmək belə mənfəətdir. Ən böyük mənffətim doğruluğu, haqqı, yaxşılığı öyrənməkdir!

N* - nakamlığın həyat xatakteri yazıdır, yoxsa iradəsizlik?

- Çox çətin sualdır. Birincisi, Allahın könlü olmasa, ağacda bir yarpaq tərpənməz. O qədər savadlı dahilərimiz gəlib dünyaya nakam da gedib. Bu, Allahın yazısıdır. Onun qədərindən qaçmaq olmaz.

İradəsizlik isə, onun günahını mən ailədə görürəm. O uşaq ailələrində tam tərbi-

yə almayıb. Ona görə də urvafsız olur. Kişi də, qadın da sözübütöv olmalıdır.

O* - oyun qurmaq yaxşıdır, yoxsa oyunçu olmaq?

- Oyun quranda mən istərəm: nə qan qaraldan, nə könül qıran, nə "oyun" quran olsun, nə də oyunçu.

Ö* - "Özün" olmaqla, içində "özgələş"mək nədən başlayır?

- Saxtakarlıqdan. Dünya səhnıədir, bəzi insanlar olduğu kimi görünür, kimisi də başqası kimi.

Mələk donunda şeytanlar var.

Hiyləgərlik, yenə də saxtakarlıq!

Nə olursansa, özün ol!

P* - Paklığa necə anlam verirsən?

- Çox gözəl! Paklıq, düzlük rəmzidir, insanlıq məktəbidir. Ondan gözəl nə ola bilər. Paklıq eldə üz ağardır.

R* - rəzilliyi yaradan "vasitə"dir, yoxsa iradəsizlik?

- Rəzilliyi yaradan vasitə ağılsızlıqdır. Bir igidlə el öyünər, bir rəzil isə həm özünü, həm də eli rəzil edər.

S* - Səadətə gedən yol haradan başlayır?

- Səadətə gedən yol sevgidən, eşqdən, düzlükdən başlayır.

Ş* - şər qüvvəni yaradan nədir?

- Nəfs şər qüvvəni yaradan qüvvədir.

T* - Taleyin işini bilən varmı? Ya da, tale yükü nə deməkdir?

- Yox, taleyin işini bilən yoxdur. Taleyin yükü isə çox ağır, həm də şərəflidir. Dünya mübarizə meydandır, vuruşub ayaqda qalmaq lazımdır!

U* - utancaqlıq insanın hansı xarakterini üzə çıxardır?

- Utancaqlıq zəiflikfdir, insanın xarakterinin zəifliyini üzə çıxardır. Sözünü deyə bilməyən adamlar zəifdir.

Ü* - üzgörənlik insanlığın əxlaqi dəyərinin nəyini bəlli edir?

- İnsanın iç dünyası ilə zahirinin uyğunsuzluğunu bəlli edir. İnsanın gözünə bax, onun kimliyi bəllidir.

V* - fikirdə vəhdət necə yaranır?

- Əxlaq - gözəllik, elm - savad vəhdətlə yaranır.

Y* - yaşamın həyati seçimi insanın əzmi ilə, yoxsa, cəmiyyətin dəyişən üzü ilədir?

- Məncə insanın öz əzmi ilədir. Sadiq ürəklə Allah versin, Allah verəndə də imtahan edir, alanda da. Allahın ələmi də var, qələmi də, kərəmi də. Ondan nə gəldisə, mən başım, gözüm üstə qoydum. Sı-

naqlarım ağır oldu həddindən artıq, kərəm sahibi yoxdan qapı açdı, dünyanın nazı-nemətini verdi. Dünyada nə var hər şeyi gördüm.

Kərəminə min şükür!

Z* - Zaman sizin üçün nəyə bərabərdir, tarixdir, yoxsa ömür?

- Mən dünyanı bir kitab, aylarını, günlərini vərəqləri sayıram. Hərənin öz dastanı yazılır. Mənim ömür dastanıma zamanın əli ilə qürbət düşüb. Dünyanın yetmiş altı dövlətini gəzib yaşamışam.

İnsan sərrafıyam. Bir baxışla insanları ayırd edirəm.

Mənim bu ömrümdə mənə dayaq-dəstək, bir ömür yanımda duran, mənə sənətin sirrini öyrədən ustadım şair İladi Ömərоğluna minnətdaram! Doğulandan onun "şəyirdi"yəm. Mənim söz dünyamda nə varsa , ona minnətdaram.

Yenə dərs alıram, Böyük qardaş kimi, həm də ustadım kimi.

O mənim nəfəsimdir!

104 yaşlı Xanım anam "həyat məktəbim"dir!

Müsahibəni apardı:
Filoloq Nəsib Abid
3 iyun 2025-ci il

İstifadə edilmiş ədəbi mənbələr:

1. “Bayatı çələngi”, “Elm və təhsil”, Bakı-2021, 153 səhifə

2. “Könlümün barı”, “Elm və təhsil”, Bakı-2022, 285 səhifə

3. “Könül körpüsü”, “Elm və təhsil”, Bakı-2023, 199 səhifə

4. “Bayatılar”, “Elm və təhsil”, Bakı-2023,91 səhifə.

5. “Cinaslı bayatılar”, “Elm və təhsil”, Bakı- 2023, 71 səhifə

6. İladi Ömərоğlu, “Bir ocağın şöləsi”, “Elm və təhsil”, Bakı-2012, 191 səhifə

Nəsib Abid

Sərin Gül Sadə
və onun Söz dünyası

QEYD

"Elm və təhsil" nəşriyyatının direktoru:
İNAL MƏMMƏDLİ

Dizayner: Zahid Məmmədov
Texniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 09.01.2025
Şərti çap vərəqi 30,5. Sifariş № 04
Kağız formatı 60x84 1/16. Tiraj 500

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4